

Milli azadlıqdan şirin nemət yoxdur!

# YENİ AZƏRBAYCAN


20 avqust 2026-cı il, cümə axşamı
№ 148 (7215)
Qiymət 60 qəpik

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.


## Heydər Əliyevin 2001-ci il avqustun 20-də imzaladığı fərman peşəkar zabit kadrlarının hazırlanmasında vacib bir mərhələyə keçidi təmin etdi

## Ordu quruculuğunda tarixi mərhələ



Bax səh. 2

# Bakıdan Rusiyaya xəbərdarlıq!



Bax səh. 4

## Azərbaycan-Ukrayna əlaqələrində humanizm amili

Bax səh. 3

## CNN cavab verəcək!

Müasir beynəlxalq münasibətlər sistemində təhlükəsizlik artıq yalnız ayrı-ayrı dövlətlərin milli sərhədləri daxilində həll olunan məsələ deyil. Regional münaqişələr, enerji və nəqliyyat marşrutlarının təhlükəsizliyi, terrorizm, hibrid təhdidlər və informasiya müharibələri bir-biri ilə sıx bağlıdır. Belə bir mürəkkəb geosiyasi şəraitdə Azərbaycanın həyata keçirdiyi siyasət ölkənin yalnız milli maraqlarının qorunmasına deyil, daha geniş coğrafiyada sabitlik və təhlükəsizliyin təmininə yönəlir.

Bakı Cənubi Qafqazla məhdudlaşmayan, Yaxın Şərqdən Mərkəzi Asiyaya qədər uzanan geosiyasi proseslərdə sülh və əməkdaşlıq tərəfdarı kimi çıxış edir. Azərbaycanın mövqeyinin əsas prinsiplərindən biri isə olduqca aydındır: ölkə ərazisi heç bir dövlətə qarşı hərbi, kəşfiyyat və digər düşmənçilik məqsədləri üçün istifadə edilə bilməz. Azərbaycan müxtəlif böhranlar zamanı tərəf olmaqdan daha çox dialoq və barışdırıcı mövqeni önə çəkir.

Məhz bu yanaşma fonunda Azərbaycanın ünvanına yönələn bəzi təxribatçı iddialar xüsusi diqqət çəkir. Xüsusilə CNN-in 5 iyun 2026-cı il tarixli materialında Azərbaycan ərazisinin guya İsrail tərəfindən İrana qarşı hərbi və kəşfiyyat əməliyyatları üçün istifadə edilməsi barədə iddialar irəli sürülməsi Bakının sərt etirazına səbəb olmuşdu. Azərbaycan Xarici İşlər Nazirliyi həmin məlumatları əsassız adlandırmış və CNN-ə məqalə ilə bağlı rəsmi mövqenin təqdim edildiyi bildirilmişdi.

Artıq Azərbaycan CNN-i məhkəməyə verib. Məhkəmə iddiasına səbəb Azərbaycana qarşı əsassız və təxribat xarakterli iddiaların yer aldığı məqalənin dərc edilməsidir. Vurğulandığı kimi, 2026-cı il iyunun 5-də CNN-in dərc etdiyi məqalədə...

Bax səh. 3



## Paytaxtda ödənişli yollar yaradılır

Bax səh. 5

## Türkiyədə "TEKNOFEST Mavi Vətən" Festivalı işə başlayır

Bax səh. 6

## ABŞ 3 dövlət arasında yeni mexanizm hazırlayır

Bax səh. 6

## Gələcəyin peşələri dəyişir...

Universitet və ixtisas seçimi abituriyentlərin qarşısında dayanan ən mühüm mərhələlərdən biridir. Artıq abituriyentlər üçün ən vacib suallardan biri "hansı ixtisası oxusam, iş tapa bilərəm?" deyil, "hansı ixtisas mənə gələcəkdə daha yüksək gəlir və karyera imkanları verə bilər?" sualıdır. Son illər əmək bazarında baş verən dəyişikliklər göstərir ki, texnologiyanın sürətli inkişafı, rəqəmsallaşma, süni intellektin iqtisadiyyata daxil olması ən gəlirli peşələrin siyahısını da əhəmiyyətli dərəcədə dəyişdirir.

Azərbaycanın əmək bazarı ilə bağlı 2025-ci il üzrə Milli Observatoriyanın apardığı təhlildə ən yüksək orta əməkhaqqının İKT, mühəndislik, memarlıq, proqramlaşdırma və layihələrin idarə edilməsi istiqamətlərində qeydə alındığı bildirilir. Bu göstərici təsadüfi deyil. Çünki müasir işəgötürən artıq yalnız diplom sahibi olan deyil, konkret problemi həll edə bilən, texnologiyadan istifadə edən, xarici dil bilən, komanda ilə işləyən və beynəlxalq standartlara uyğun nəticə ortaya qoyan mütəxəssis axtarır.

Ən gəlirli istiqamətlərdən danışarkən ilk növbədə informasiya texnologiyalarını qeyd etmək lazımdır. Proqramlaşdırma, süni intellekt, məlumat analitikası, kibertəhlükəsizlik, bulud texnologiyaları kimi istiqamətlər artıq yalnız texnologiya şirkətlərinin deyil, bankların, sığorta qurumlarının, dövlət strukturlarının, istehsal müəssisələrinin əsas ehtiyaclarından birinə çevrilib.

Burada xüsusilə diqqətçəkən məqam odur ki, İT sahəsində insanın qazancı çox vaxt diplomun adından daha çox onun real bacarıqlarından, layihələrindən, texniki biliklərindən və beynəlxalq bazara çıxış...

Bax səh. 5



## BCM-nin nüfuzuna zərbə vuran "prokuror"...

Bax səh. 6

## Avropada miqrasiya ilə bağlı yeni siyasət



Bax səh. 7





# Ordu quruculuğunda tarixi mərhələ

## Heydər Əliyevin 2001-ci il avqustun 20-də imzaladığı fərman peşəkar zabit kadrlarının hazırlanmasında vacib bir mərhələyə keçidi təmin etdi

Xalqımızın Ümummilli Lideri Heydər Əliyev hər zaman Azərbaycanın gələcəyini düşünərək mühüm strateji önəm daşıyan qərarlar qəbul edib və sənədlər imzalayıb. Ulu Öndərimiz belə sənədlərdən birini tarixin bu günündə - 2001-ci il avqustun 20-də imzalayıb. Söhbət Azərbaycan Respublikası Silahlı Qüvvələri üçün kadr hazırlığı sisteminin və hərbi təhsilin təkmilləşdirilməsini hədəfləyən fərmandan gedir.

Bu fərman Müdafiə Nazirliyi sistemində hərbi təhsil müəssisələrinin fəaliyyətinin gücləndirilməsində və peşəkar zabit kadrlarının hazırlanmasında vacib bir mərhələyə keçidi təmin etdi. Fərmana əsasən, Silahlı Qüvvələr üçün kadr hazırlığının təkmilləşdirilməsi məqsədilə Müdafiə Nazirliyi sistemində fəaliyyət göstərən məktəblər Azərbaycan Ali Hərbi Məktəbi, Azərbaycan Hərbi Dənizçilik Məktəbi və Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi adlandırılıb. 2004-cü ildən etibarən bu hərbi məktəblər Heydər Əliyevin adını daşıyır.



## Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci mərhələsi - Ulu Öndərin azərbaycanlı hərbçi kadrların yetişdirilməsinə həssas yanaşması

Dünya tarixində iz qoyan böyük siyasətçi Heydər Əliyev Azərbaycana ideoloji cəhətdən iki fərqli formasiyada rəhbərlik edib - keçmiş sovet dönəmində və Azərbaycanın müstəqilliyinin ilk illərində. Lakin siyasi sistemlər bir-birindən fərqli olsa da, Heydər Əliyevin xalqa, Vətənə sevgisi və bağlılığı heç vaxt dəyişməyib. O, böyük fədakarlıqla ömrünü Azərbaycanın inkişafına həsr edib və bu yolda heç nədən çəkinməyib.

Azərbaycanın da 70 il tərkibində olduğu keçmiş SSRİ sərt ideoloji çərçivələrə malik bir dövlət idi. Həmin çərçivələrdən kənara çıxmaq xüsusilə də milli respublikalar və milli liderlər üçün sözün əsl mənasında bir tabu idi. Bu tabunu hansısa bir formada pozanları ən ağır cəza gözləyirdi. Ancaq Heydər Əliyevin milli təəssübkeşliyi, daxilində olan azərbaycançılıq hissi heç bir məhdudiyyət tanımırdı. Bunu 1969-cu ildə ilk dəfə respublikamızın rəhbərliyinə gələn Heydər Əliyevin bütün istiqamətlərdə milli intibahı, xalqın özünüdərkini, güclü iqtisadi potensial yaradılmasını hədəfləyən fəaliyyəti əyani şəkildə təsdiqləyir.

Böyük siyasətçi Heydər Əliyevin hələ keçmiş sovet dönəmində respublikaya rəhbərlik edərkən Azərbaycanın gələcəyini və gələcək müstəqilliyini düşünərək milli hərbiçi kadrların yetişdirilməsinə həssas yanaşması Onun strateji baxışlarının ifadəsi idi. Məlumdur ki, keçmiş ittifaqda ideoloji qadağalar həmçinin azərbaycanlıların peşəkar hərbçilər kimi formalaşmasına ciddi məhdudiyyətlər yaradırdı. Bu, çar Rusiyasından qalan bir ənənə idi. Məqsədli şəkildə belə bir ictimai rəy formalaşdırılmışdı ki, azərbaycanlılar hərb sənətindən uzaq olan bir xalqdır. Qəlbində daim Azərbaycanın müstəqilliyini arzulayan Heydər Əliyev bu qəbildən olan yanaşmalarla barışa bilməzdi və barışmadı da. Ulu Öndər çıxışlarının birində belə deyib: "22 il bundan öncə, 1971-ci ildə biz heç bilmirdik ki, Azərbaycan müstəqil respublika olacaqdır. Lakin mən o vaxt Azərbaycanın müstəqilliyi fikri ilə yaşayırdım".

Heydər Əliyev praqmatik siyasətçi idi və anlayırdı ki, müstəqilliyin əsas faktorlarından biri məhz ordu və orduda xidmət göstərəcək hərbçilərin olmasıdır. Bəzi statistik rəqəmlərə nəzər salsaq, azərbaycanlı hərbçi kadrların yetişdirilməsi ilə bağlı Heydər Əliyevin qarşısında necə çətin bir vəzifənin dayandığı barədə konkret təsəvvür yaranar. Onun birinci dəfə respublikamızın rəhbərliyinə gəldiyi ərəfədə - 1967-ci ildə Bakı Ali Ümumqoşun Komandirləri Məktəbinə cəmi 21 azərbaycanlı, Xəzər Ali Hərbi Dənizçilik Məktəbinə isə vur-tut 2 azərbaycanlı daxil olmuşdu. Heydər Əliyevin özü belə acınacaqlı durumu şərh edərək bildirirdi: "Dövlət təhlükəsizliyi orqanlarında işləyəndə bütün Azərbaycanda, habelə SSRİ-də olan hərbi hissələrlə çox yaxşı tanış idim. Onlarla əlaqəm var idi, onlarla görüşürdüm. Ancaq hər dəfə məni narahat edən o idi ki, azərbaycanlılardan zabit vəzifəsində adam yoxdur. Ümumiyyətlə, SSRİ ali hərbi məktəblərinə, əsasən, ruslar, ukraynalılar, beloruslar qəbul oluna bilərdilər. Qalan millətlərin gənclərinin hərbi məktəblərə qəbul edilməsini çox nadir hadisə kimi qəbul etmək olardı. Bunları görəndə, bu barədə fikirləşəndə düşünürdüm, yaxşı, biz İttifaqın bərabərhüquqlu müttəfiq respublikasıyıq, böyük səlahiyyətlərimiz var. Biz nə üçün ordudan təcrid olunuruq? Deməli, əlavə tədbirlər görmək lazım idi ki, bu maneəni keçəsən və azərbaycanlıları orduda komandan, zabit vəzifəsinə çatdıra biləsən. Ona görə də mən 1969-cu ildə Azərbaycana rəhbər seçiləndən sonra, 1971-ci ildə bununla məşğul oldum".

Heydər Əliyev bütün maneələrə baxmayaraq, stereotipləri qırmağa nail oldu. Onun böyük səyləri və uzaqgörənliyi sayəsində 1971-ci ildə Zığ qəsəbəsində yerləşən 2 nömrəli səkkizillik internat məktəbin bazasında Cəmşid Naxçıvanski adına hərbi təmayüllü xüsusi internat məktəbin əsası qoyuldu. Ulu Öndərin bu məktəbin fəaliyyətinə xüsusi diqqətinin nəticəsi olaraq talelərini hərb sənətinə bağlamaq və bu sahədə çalışmaq istəyən azərbaycanlı gənclərin sayı ilbəil artdı. Bunu statistikadan da görmək mümkündür. Əgər 1971-ci ildə C.Naxçıvanski adına Xüsusi internat məktəbinin cəmi 21 məzunu keçmiş ittifaqın ali səviyyəli hərbi məktəblərinə daxil olmuşdusa, bu rəqəm 1983-cü ildə 133-ə çatdı. 1986-cı ildə isə məktəbin artıq 200-dən çox məzunu keçmiş ittifaqın müxtəlif ali hərbi məktəblərinə daxil ola bilmişdilər. 1982-ci ildə bütövlükdə respublikadan 1086 nəfər keçmiş SSRİ-nin müxtəlif ali hərbi məktəblərinə daxil olmuşdu ki, onlardan 619 nəfəri azərbaycanlı idi. Beləliklə, Heydər Əliyevin səyləri sayəsində qısa müddətdə ali hərbi məktəblərdə təhsil alan azərbaycanlı gənclərin sayı 20 dəfəyə yaxın artdı. Bu, misli görünməmiş bir uğur idi. Söhbət yalnız say artımından deyil, həm də azərbaycanlı gənclər arasında hərbi sahəyə böyük maraq yaranmasından gedirdi. Eyni zamanda, azərbaycanlı gənclərin respublikamızda fəaliyyət göstərən hərbi məktəblərə cəlb edilməsi istiqamətində də məqsədyönlü işlər aparılırdı. Heydər Əliyev bu barədə xatirələrində yazaraq bildirib: "Mən 1970-ci ildə bu məktəblərin işi ilə tanış olarkən gördüm ki, hər bir məktəb ildə 300 müdavim qəbul etdiyi halda, Ümumi Hərbi Komandirlər Məktəbində cəmisi 10-15 nəfər azərbaycanlı təhsil alır, Hərbi Dəniz Donanması Məktəbində isə 1-2 nəfər azərbaycanlı oxuyur. Hərbi məktəblər Azərbaycanda, Bakıda yerləşirdi, amma orada oxuyanların tam əksəriyyəti azərbaycanlı deyildi. Bu, bir tərəfdən o vaxt aparılan siyasət, sovet hakimiyyətinin siyasəti idi. Onlar o vaxt orduda yüksək vəzifələrdə başqa millətlərdən və xüsusən, Azərbaycan millətindən olan insanları görmək istəmirdilər. İkinci tərəfdən də Azərbaycanda hərbi peşəyə soyuq münasibət var idi. Biz bunların aradan qaldırılması üçün tədbirlər gördük. Biz Naxçıvanski adına hərbi məktəb yaratmaqla yanaşı, Azərbaycanda yerləşən iki ali hərbi məktəbə - baxmayaraq ki, onlar birbaşa Moskvaya, Sovet Ittifaqı Müdafiə Nazirliyinə tabe idilər - hər il azərbaycanlıların qəbul edilməsinə nail olduq".

## Ulu Öndərin Azərbaycana rəhbərliyinin ikinci dönəmi - nizami ordu quruculuğunun əsası qoyuldu

Hazırda dünyanın dəyişən reallıqları ortadadır - beynəlxalq prinsiplər işləmir, güc amili önə keçib. Bu reallıqlar fonunda Heydər Əliyevin zamanında ordu quruculuğuna həssas yanaşma sərgiləməsinin strateji önəmi daha aydın dərk olunur. Ordu müstəqil dövlətin mövcudluğunun əsas atributudur. Qeyd etdiyimiz kimi Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ikinci dövrü müstəqilliyimizin ilk illərinə təsadüf edib. Ulu Öndər çətin bir dönəmdə - 1993-cü ilin yayında müstəqil Azərbaycanın rəhbərliyinə gəlmişdi. Daha doğrusu, bunu xalq və o dövrdə hakimiyyətdə olan AXC-"Müsavat" iqtidarı təkid etmişdi. Bu o dövr idi ki, AXC-"Müsavat" iqtidarı səriştəsiz rəhbərliyi ilə Azərbaycanı vətəndaş müharibəsinin astanasına gətirmişdi. Belə bir vəziyyətdə Naxçıvanda yaşayıb çalışan Heydər Əliyev xalqın Ona bəslənən ümidlərinin qırılmasına imkan vermədi və respublikanın rəhbərliyinə gəlməyə razılıq verdi.

Heydər Əliyev ikinci dəfə Azərbaycanın rəhbərliyinə gəlişinin ilk günlərindən ordu quruculuğuna xüsusi diqqət ayırdı. Həmin dövrdə Azərbaycanda nizami ordu yox idi. Xarici təcavüzə məruz qalan ölkənin ordusu ayrı-ayrı "liderlərə" tabe olan və sırf onların göstərişlərini yerinə yetirən pərakəndə dəstələrdən ibarət idi. Heydər Əliyevin müstəqil Azərbaycan qarşısında ən böyük xidmətlərindən biri məhz bütün müqavimətləri yararaq həmin pərakəndə silahlı birləşmələri ləğv etməklə nizami, vahid komandanlığa tabe olan ordu quruculuğuna nail olmasıdır. Atılan bu mühüm addımdan sonra isə ordunun strukturunun formalaşdırılmasına, təchizatın qaydaya salınmasına start verildi. Görülən mühüm tədbirlərdən bəzilərinə diqqət çəkək. Respublikada hərbi təyyarəçi kadrlara olan ehtiyacın aradan qaldırılması üçün 1995-ci ildə Azərbaycanda Uçuş Hazırlığı Təlim Mərkəzi yaradıldı və bu mərkəzdə 3 illik proqram əsasında təyyarəçi kadrların hazırlanmasına başlandı. 1997-ci il oktyabr ayının 15-də bu təlim mərkəzində təhsil alan heyətin ilk buraxılışı oldu və Heydər Əliyev həmin tədbirdə iştirak edərək gənclərə öz tövsiyələrini verdi. Heydər Əliyevin 1999-cu ildə imzaladığı fərmanla Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasının yaradılması nizami ordu quruculuğu yolunda böyük uğur idi. Eləcə də Ulu Öndərin uzaqgörən siyasəti nəticəsində 1994-cü ilin əvvəllərində Azərbaycan NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına qoşuldu; bu əməkdaşlığın davamı olaraq 1996-cı ildə "Planlaşdırma və analiz prosesi" proqramına, 2001-ci ildə isə "Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı"na daxil oldu. Görülən işlərin nəticəsi olaraq iki mindən çox Azərbaycan hərbçisi NATO proqramlarında və digər ikitərəfli əməkdaşlıq proqramlarında iştirak edərək ən son hərbi yenilikləri mənimsədi. Eləcə də 1997-ci ildən Azərbaycanın xüsusi təyinatlı təhsil müəssisələri NATO standartlarına keçid etdi.

Paralel şəkildə hüquqi bazanın möhkəmləndirilməsi istiqamətində önəmli addımlar atıldı. 1993-cü il noyabrın 23-də parlamentdə "Müdafiə haqqında" Qanun qəbul edildi. Qanunda ordu quruculuğunda məsul vəzifəli şəxslərin və orqanların fəaliyyəti sistemləşdirilərək məsuliyyət sahələri dəqiqləşdirilirdi. Noyabr-dekabr aylarında 40 ehtiyat taboru təşkil edildi. Az sonra Ulu Öndər Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan kimi şəxsən cəbhə bölgələrində ordunun, əsgərlərin vəziyyəti ilə yaxından tanış oldu, konkret tədbirlər müəyyənləşdirdi. Bu, ordunun şəxsi heyətinin mənəvi hazırlığını əhəmiyyətli dərəcədə yüksəltdi.

Nəhayət, Ümummilli Lider Heydər Əliyevin 1998-ci il mayın 28-də imzaladığı fərmanla 26 iyun - Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü elan olundu. Bu fərman ordumuzun quruculuğunda varislik ənənələrinin bərpası və tarixilik baxımından böyük əhəmiyyətə malikdir. Ulu Öndər deyirdi: "Azərbaycanın hər bir vətəndaşı mənim üçün əzizdir, amma Azərbaycan əsgəri, zabiti mənə hər bir vətəndaşdan daha əzizdir, daha yaxındır".

Əlamətdar haldır ki, Heydər Əliyevin rəhbərliyi ilə hələ formalaşma mərhələsində olan Ordumuz ilk uğurlarını da qazanmağa başlamışdı. 1994-cü il yanvarın 5-də aparılan uğurlu əməliyyatlar nəticəsində Füzuli rayonunda strateji əhəmiyyətli Horadiz qəsəbəsi, 22 kənd işğaldan azad edildi. Həmçinin düşmən Ordumuzun Kəlbəcər-Ağdərə, Goranboy-Tərtər istiqamətlərində əks-hücumlarına tab gətirməyərək ağır itkilər verdi və geri çəkilməyə məcbur oldu.

## Bakıda möhtəşəm hərbi parad - şanlı Zəfərin rəmzi və yeni reallığın nümayişi

Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu ordu quruculuğu siyasəti sonrakı mərhələdə Prezident İlham Əliyev tərəfindən eyni ardıcıllıqla təmin edilib. Son 22 ildə Azərbaycan Silahlı Qüvvələri müasir institusional struktur formalaşdırmaqla, həmçinin maddi-texniki təchizatı möhkəmlətməklə, güclü müdafiə sənayesi qurmaqla dünyanın ən güclü 50 ordusu sırasına daxil olub. Respublikamızda Prezident İlham Əliyevin siyasi iradəsi əsasında Milli Müdafiə Universitetinin yaradılması hərbi kadrların hazırlanmasında Ulu Öndərin əsasını qoyduğu ənənəyə sadiqliyi təsdiqləyir. Təhsil müəssisəsinin yaradılmasında məqsəd Azərbaycan Ordusunun Türkiyə Silahlı Qüvvələrinin standartlarına uyğunlaşdırılmasıdır. Əvvəllər mövcud olan Silahlı Qüvvələrin Hərbi Akademiyası, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi və digər xüsusi təyinatlı təhsil müəssisələri öz fəaliyyətlərini yeni yaradılan Milli Müdafiə Universitetinin nəzdində Hərbi Elmi-Tədqiqat İnstitutu, Hərbi İdarəetmə İnstitutu, Heydər Əliyev adına Hərbi İnstitut, Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzi, Heydər Əliyev adına hərbi lisey, Cəmşid Naxçıvanski adına hərbi lisey və Tibb Universitetinin Hərbi Tibb Fakültəsi adı altında fəaliyyət göstərirlər.

Azərbaycan Silahlı Qüvvələri gücünü döyüşlərdə göstərən Ordudur. Silahlı Qüvvələrimiz 44 günlük Vətən müharibəsində 300-dən çox yaşayış məntəqəsini bilavasitə döyüşlərdə azad etməklə, 23 saatlıq lokal xarakterli antiterror əməliyyatı ilə ölkə ərazisində separatizm yuvasını birdəfəlik dağıtmaqla şanlı zəfərlərə imza atıb.

Ötən il Azərbaycanın şanlı Zəfərin beşinci ildönümü ilə əlaqədar noyabrın 8-də Bakının Azadlıq meydanında möhtəşəm parad keçirildi. Parad təkcə Qələbənin rəmzi deyildi, həm də yeni bir reallığın nümayişi idi. Parad Prezident İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın, Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin iştirakı ilə baş tutdu. Azadlıq meydanından keçid edən müasir texnika Azərbaycan Ordusunun hərbi qüdrətini nümayiş etdirdi. Parada ordumuzun silahlanmasına cəlb olunan yeni texnikanın məlum səbəblərə görə yalnız bir hissəsinin nümayiş etdirildiyini bildirən Prezident İlham Əliyev vurğulayıb: "İstənilən halda biz potensialımızı xeyli gücləndirmişik. Əgər Azərbaycan Ordusunu bu gün və Vətən müharibəsində qalib gəldiyimiz həmin vaxtın silahları və döyüş qabiliyyəti ilə müqayisə etsək, hazırda biz bir neçə dəfə güclüyük. Zənnimcə, bu, vəziyyəti qiymətləndirmək üçün kifayətdir. Neçə dəfə olduğunu deməyəcəyəm, amma bir neçə dəfə. Əlbəttə ki, bu, bizə öz gücümüzə inanmağa əsas verir".

Postmüharibə dövründə Ordumuzun gücləndirilməsi müxtəlif istiqamətlərdə həyata keçirilir. Silahlı Qüvvələrimiz İkinci Qarabağ müharibəsində XXI əsrin müharibəsini apardı. Döyüşlərdə yeni yanaşmaların, innovasiyaların tətbiqi və əlbəttə ki, şəxsi heyətin yüksək vətənpərvərliyi böyük Qələbəni təmin etdi. Azərbaycan postmüharibə dövründə ordu quruculuğunu İkinci Qarabağ müharibəsinin təcrübəsini nəzərə almaqla həyata keçirir. Silahlı Qüvvələrin müasir tələblərə cavab verən silah-sursatla təminatı yenə də əsas vəzifələrdən biridir.

Azərbaycanın müdafiə potensialının gücləndirilməsində digər mühüm istiqamət struktur islahatlarını əhatə edir. Burada ilk növbədə NATO daxilində ikinci ən güclü orduya sahib olan Türkiyənin təcrübəsinə istinad edilir. Məsələn, postmüharibə dövründə bir sıra yeni silahlı birləşmələr, o cümlədən komando birlikləri yaradılıb və proses davam edir. Komando birlikləri istənilən hərbi vəzifəni icra etməyə qadirdir və yüksək çevikliyi ilə fərqlənir.

***Mübariz ABDULLAYEV***

# Azərbaycan-Ukrayna əlaqələrində humanizm amili

## Ukraynanın sabiq Prezidenti Azərbaycan Prezidentinə təşəkkür etdi



Praqmatik və əməkdaşlığa açıq prinsiplər üzərində qurulan Azərbaycanın xarici siyasət kursunun əsas prioritetləri beynəlxalq hüquqa hörmət, dövlətlərin suverenliyi və ərazi bütövlüyünün qorunması, eləcə də qarşılıqlı maraqlara əsaslanan tərəfdaşlıq münasibətlərinin inkişaf etdirilməsidir. Bakı qlobal və regional səviyyədə etibarlı tərəfdaş kimi çıxış edərək müxtəlif ölkələrlə siyasi, iqtisadi və humanitar sahələrdə əlaqələrini genişləndirməyə xüsusi önəm verir. Bu kontekstdə Ukrayna ilə münasibətlər Azərbaycanın xarici siyasətində mühüm yer tutur. Hər iki ölkə oxşar tarixi-siyasi çağırışlarla üzləşib - ötən əsrin sonunda SSRİ-nin dağılması ilə müstəqilliklərini elan edən ölkələr qarşılıqlı şəkildə ərazi bütövlüyünə dəstək verilməsi, siyasi dialoqun davamlılığı və müxtəlif beynəlxalq platformalarda əməkdaşlıq kimi mühüm əlaqələrə malikdirlər. Bu ilin aprelində Qəbələdə Ukrayna Prezidenti Volodimir Zelenskinin Azərbaycana səfəri çərçivəsində mətbuata bəyanatında Prezident İlham Əliyev bildirmişdi ki, əməkdaşlığımızın çox güclü siyasi təməli var: “2008-ci ildə Kiyevdə, 2011-ci ildə Bakıda strateji tərəfdaşlığa dair iki sənəd imzalanmışdır və bunlar çox güclü siyasi sənədlərdir. O sənədlərdə ölkələrimizin qarşılıqlı olaraq ərazi bütövlüyü, suverenliyi, sərhədlərimizin toxunulmazlığı məsələləri öz əksini tapmışdır. Azərbaycan və Ukrayna bütün beynəlxalq təşkilatlarda qarşılıqlı olaraq ölkələrin suverenliyini, ərazi bütövlüyünü dəstəkləyir və dəstəkləyəcəkdir”.

### Humanitar dəstək...

Ukraynanın sabiq Prezidentinin də qeyd etdiyi kimi, Bakının Ukraynaya münasibətdə humanitar diqqəti olduqca genişdir. Azərbaycan tərəfindən Ukraynaya göstərilən humanitar dəstək bir neçə mərhələni əhatə edir. Müharibənin ilk aylarından etibarən enerji avadanlıqları, tibbi ləvazimatlar və ərzaq məhsulları göndərilib. Sonrakı dövrlərdə elektrik infrastrukturunun bərpasına dəstək məqsədilə generatorlar və transformatorlar təqdim olunub, eyni zamanda sosial obyektlərin fəaliyyətinin təmin edilməsi üçün əlavə yardımlar ayrılıb. Bununla yanaşı, Azərbaycanın dövlət şirkətləri və humanitar qurumları vasitəsilə Ukraynada məktəblərin, xəstəxanaların və digər vacib obyektlərin ehtiyaclarının qarşılanmasına töhfə verilib. Beləliklə, Azərbaycan beynəlxalq münasibətlər sistemində humanizm prinsiplərinə əsaslanan siyasət yürüdərək həm neytral mövqeyini qoruyur, həm də ehtiyac duyan tərəflərə humanitar dəstəyini davam etdirir. Bu yanaşma ölkənin xarici siyasətində insan amilinə verilən önəmin bariz nümunəsi kimi çıxış edir.

Sirr deyil ki, Azərbaycan da uzun illər ədalətsiz müharibəyə cəlb olunub. O ağır günlərdə, çətin dövrlərdə Bakı öz gücü ilə bütün problemlərin öhdəsindən gələ bildi. İndiki halda isə, Azərbaycan bu ağırlığı yaşayan bir ölkə olaraq digər dövlətlərə də yardım əlini uzadır. Ukraynada müharibə nəticəsində enerji sistemi sıradan çıxıb və bundan da mülki insanlar əziyyət çəkir. Ukraynanda mülki insanlar, xəstəxanalar ciddi problemlər yaşayırlar. Bakı bunu da nəzər alıb - enerji böhranı fonunda Ukraynaya generatorlar, transformatorlar və digər elektrik avadanlıqları göndərilir. Məktəblər, xəstəxanalar və sosial obyektlər üçün texniki və humanitar dəstək davam etdirilir. Ötən dövr ərzində onlarla humanitar yardım karvanı Ukraynaya yola salınıb. Yardımlar fasiləsiz xarakter daşıyır və müharibənin ilk günlərindən başlayaraq bu günə qədər davam edir.

Yeri gəlmişkən, Ukrayna davam edən Rusiya-Ukrayna müharibəsi fonunda enerji avadanlıqları ilə təminatda göstərilən yardıma görə Azərbaycana təşəkkür edib. Bu barədə Ukrayna Energetika Nazirliyinin “X” sosial şəbəkəsindəki bəyanatında bildirilib.

Vurğulanıb ki, bu ilin əvvəlindən Avropa İttifaqı, Azərbaycan, Avstriya, Belçika, Danimarka, Estoniya, İslandiya, İspaniya, İtaliya, Kanada, Latviya, Litva, Lüksemburq, Moldova, Niderland, Almaniya, Norveç, Slovakiya, ABŞ, Türkiyə, Finlandiya, Fransa, Filippin, İsveçrə, İsveç, Yaponiya, Çexiya, Polşa, Kipr və Çindən olan tərəfdaşlar Ukraynaya enerji avadanlıqları təqdim ediblər.

Ümumilikdə 2022-ci ilin martından ölkənin Energetika Nazirliyinin koordinasiyası ilə Ukraynaya ümumi çəkisi 32,3 min tondan çox olan enerji avadanlıqlarından ibarət 2 min 542 humanitar yük daxil olub. 28,9 min tondan çox avadanlıq artıq regionlar arasında bölüşdürülüb.

“Ukraynanın enerji sisteminin işinin təmin edilməsindəki yardıma görə bütün tərəfdaşlarımıza dərindən minnətdarıq”, - deyə məlumatda qeyd olunub.

### Yuşşenkodan təşəkkür...

Yeri gəlmişkən, bir neçə gün Bakıda səfərdə olan və Prezident İlham Əliyev tərəfindən qəbul edilən Ukraynanın sabiq Prezidenti Viktor Yuşşenko Ukraynaya dəstəyə, humanitar yardıma, ukraynalı uşaqların reabilitasiya proqramlarına və ölkənin suverenliyinə, ərazi bütövlüyünə hörmətə görə Prezident İlham Əliyevə və Azərbaycan xalqına təşəkkür edib. Bu barədə Yuşşenko sosial şəbəkə səhifəsində Bakıya etdiyi səfərə həsr olunmuş paylaşımında yazıb. “Prezident İlham Əliyevlə bizi 20 ildən artıq şəxsi dostluq və Ukrayna ilə Azərbaycan arasında münasibətlərin möhkəmləndirilməsi üzrə birgə iş birləşdirir. Dostluğumuza dəyər verirəm və əminəm ki, Ukrayna və Azərbaycan arasındakı strateji tərəfdaşlıq, qarşılıqlı etimad və hörmət bundan sonra da birgə işlərdə öz əksini tapacaq”, - o vurğulayıb.

Sabiq prezident qeyd edib ki, onun Azərbaycan xalqı ilə dostluq dövrü 1989-cu ildə Naxçıvanda Ümummilli Lider Heydər Əliyevlə tanışlığı və dostluq münasibətlərinin qurulması ilə başlayıb.

Yuşşenko əlavə edib ki, bu işin mühüm nəticəsi iki ölkə arasında strateji tərəfdaşlığın rəsmən təsbit edilməsi olub. O xatırladıb ki, 2008-ci il mayın 22-də İlham Əliyevin Kiyevə rəsmi səfəri zamanı Bakı ilə Kiyev arasında dostluq və strateji tərəfdaşlıq haqqında Bəyannamə imzalanıb.

“Bu sənəd ikitərəfli münasibətlərimizin strateji xarakterini müəyyən etdi və onların gələcək inkişafı üçün möhkəm təməl qoydu. Hazırkı görüşdə biz ölkələrimizin bugünü və gələcəyi, ikitərəfli əməkdaşlığın inkişafı və komandalarımızın hazırlanması üzərində işi davam etdirəcəyi konkret layihələr haqqında danışdıq”, - Yuşşenko yazıb.

Yuşşenkonun da qeyd etdiyi kimi, Bakının humanitar dəstəyi bir neçə formada özünü göstərir. Ukraynadan olan uşaqlara reabilitasiya proqramlarının həyata keçirilməsi də bu səpkidə atılan humanittar addımlardandır. Qeyd edək ki, ötən dövrdə ümumilikdə 450-yə yaxın uşaq ölkəmizə gətirilərək bu proqramlarda iştirak ediblər. Məsələn, 2024-cü ilin oktyabrında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin təşkilatçılığı ilə 30 ukraynalı uşaq reabilitasiya xidmətləri ilə təmin edilmək üçün ölkəmizə gətirilib. Uşaqlara agentliyin Qəbələ Uşaq Reabilitasiya Mərkəzində keçirilən 10 günlük proqram çərçivəsində tibbi, eləcə də sosial-psixoloji reabilitasiya xidmətləri göstəriləcək, peşəkar psixoloqlar tərəfindən fərdi konsultasiyalar, qrup terapiyaları, eləcə də yoqa və rəqs terapiya məşğələləri təşkil olunub. Reabilitasiya proqramı onların emosional vəziyyətlərinin stabilləşməsinə, cəmiyyətə inteqrasiyalarının təmin edilməsinə dəstək məqsədi daşıyır. Uşaqların Azərbaycan mədəniyyəti, tarixi ilə tanışlığı üçün Şəki və Qəbələ şəhərlərindəki muzeylərə ekskursiyalar təşkil olunub.

Ötən ilin avqustunda isə daha 30 uşaq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Qəbələ Uşaq Reabilitasiya Mərkəzində reabilitasiya xidmətləri ilə əhatə olunublar. Mərkəzdə onlar ilk mərhələdə müayinədən keçirilib. Hər bir uşaq üçün fərdi reabilitasiya proqramı tərtib edilib. Emosional vəziyyətlərinin stabilləşməsinə, cəmiyyətə inteqrasiyalarına dəstək məqsədilə uşaqlar üçün peşəkar psixoloqlar tərəfindən fərdi konsultasiyalar, qrup terapiyaları, eləcə də yoqa və rəqs terapiya məşğələləri keçirilib. Onlara müalicəvi hovuz və vanna, art-

### Ukraynalı uşaqlar diqqət mərkəzindədir...

terapiya və s. reabilitasiya xidmətləri göstərilib. 10 günlük sosial reabilitasiya proqramı çərçivəsində ukraynalı uşaqlar üçün asudə vaxtlarının maraqlı keçməsi üçün tarixi yerlərə, muzeylərə ekskursiyalar, stolüstü oyunlar, yarışlar və s. tədbirlər də təşkil olunub.

Bu ilin iyulunda isə Sosial Xidmətlər Agentliyinin təşkilatçılığı ilə 30 ukraynalı uşaqdan ibarət daha bir qrup sosial-psixoloji reabilitasiya xidmətləri ilə təmin edilmələri üçün ölkəmizə gətirilib. Ukraynalı uşaqlar agentliyin Qəbələ Uşaq Reabilitasiya Mərkəzində 10 günlük reabilitasiya proqramı çərçivəsində xidmətlərlə təmin ediliblər. Bu müddətdə onların emosional vəziyyətinin stabilləşdirilməsi və cəmiyyətə inteqrasiyasına dəstək məqsədilə fərdi konsultasiyalar, qrup terapiyaları, yoqa və rəqs terapiyası məşğələləri təşkil olunub. Ukraynalı uşaqların asudə vaxtlarının səmərəli təşkili məqsədilə onlar üçün müxtəlif ekskursiyalar, stolüstü oyunlar, müxtəlif yarışlar və digər tədbirlər də proqrama daxil edilib.

**P.İSMAYILOV**

# CNN cavab verəcək!

## Təxribatçı yalanlar yayan media orqanına qarşı iddia qaldırılıb

Müasir beynəlxalq münasibətlər sistemində təhlükəsizlik artıq yalnız ayrı-ayrı dövlətlərin milli sərhədləri daxilində həll olunan məsələ deyil. Regional münaqişələr, enerji və nəqliyyat marşrutlarının təhlükəsizliyi, terrorizm, hibrid təhdidlər və informasiya müharibələri bir-biri ilə sıx bağlıdır. Belə bir mürəkkəb geosiyasi şəraitdə Azərbaycanın həyata keçirdiyi siyasət ölkənin yalnız milli maraqlarının qorunmasına deyil, daha geniş coğrafiyada sabitlik və təhlükəsizliyin təmininə yönəlir.

Bakı Cənubi Qafqazla məhdudlaşmayan, Yaxın Şərqdən Mərkəzi Asiyaya qədər uzanan geosiyasi proseslərdə sülh və əməkdaşlıq tərəfdarı kimi çıxış edir. Azərbaycanın mövqeyinin əsas prinsiplərindən biri isə olduqca aydındır: ölkə ərazisi heç bir dövlətə qarşı hərbi, kəşfiyyat və digər düşmənçilik məqsədləri üçün istifadə edilə bilməz. Azərbaycan müxtəlif böhranlar zamanı tərəf olmaqdan daha çox dialoq və barışdırıcı mövqeni önə çəkir.

Məhz bu yanaşma fonunda Azərbaycanın ünvanına yönələn bəzi təxribatçı iddialar xüsusi diqqət çəkir. Xüsusilə CNN-in 5 iyun 2026-cı il tarixli materialında Azərbaycan ərazisinin guya İsrail tərəfindən İrana qarşı hərbi və kəşfiyyat əməliyyatları üçün istifadə edilməsi barədə iddialar irəli sürülməsi Bakının sərt etirazına səbəb olmuşdu. Azərbaycan Xarici İşlər Nazirliyi həmin məlumatları əsassız adlandırmış və CNN-ə məqalə ilə bağlı rəsmi mövqenin təqdim edildiyi bildirilmişdi.

### Azərbaycan məhkəməyə müraciət edib

Artıq Azərbaycan CNN-i məhkəməyə verib. Məhkəmə iddiasına səbəb Azərbaycana qarşı əsassız və təxribat xarakterli iddiaların yer aldığı məqalənin dərc edilməsidir. Vurğulandığı kimi, 2026-cı il iyunun 5-də CNN-in dərc etdiyi məqalədə Azərbaycan ərazisinin guya İsrail tərəfindən İrana qarşı hərbi və kəşfiyyat əməliyyatlarının həyata keçirilməsi üçün istifadə edildiyi barədə bir sıra təxribat xarakterli iddialar yer alıb. Məqalədə iddia olunur ki, guya İsrail xüsusi təyinatlıları Azərbaycanın cənubunda, İran sərhədinə yaxın bir neçə ərazidə fəaliyyət göstərir, həmin məntəqələrdən kəşfiyyat və pilotsuz uçuş aparatları əməliyyatlarını həyata keçirir, guya İsrail Azərbaycanda dinləmə cihazları və digər kəşfiyyat avadanlıqlarını əvvəlcədən yerləşdirib və bunun İrana qarşı sonrakı əməliyyatlara hazırlıq məqsədi daşıyıb.

Qeyd edək ki, CNN materialın dərcindən əvvəl Azərbaycan tərəfinin mövqeyindən xəbərdar olub. Belə ki, CNN-in sorğusuna cavab olaraq, Azərbaycan tərəfi bu iddiaları əvvəlcədən rəsmən təkzib edib və Azərbaycan ərazisinin hər hansı üçüncü dövlət tərəfindən İrana qarşı hərbi və ya kəşfiyyat məqsədləri üçün istifadəsinə icazə verilmədiyini bildirib.

Amma belə bir cavaba baxmayaraq, materialda Azərbaycanın təqdim etdiyi mövqe adekvat şəkildə əks etdirilməyib, əsas iddialar isə anonim mənbələrə istinadla təqdim olunub. Azərbaycan ərazisinin xarici qüvvələr tərəfindən qonşu və üçüncü ölkələrə qarşı istifadəyə imkan verilmədiyi barədə dəfələrlə verilmiş bəyanatlara baxmayaraq, CNN-də saxta iddialarla dolu məqalənin qəsdən dərc edilməsi Azərbaycanın haqlı narazılığına səbəb olub.

Material dərc edildikdən sonra Azərbaycan tərəfi CNN-dən sözügedən iddiaların təkzib edilməsini və materiala düzəliş verilməsini rəsmən tələb edib. Məsələ ilə bağlı Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi tərəfindən də müvafiq açıqlama verilib. İyunun 6-da, 23-də və iyulun 2-də Azərbaycan tərəfi CNN-ə rəsmi təkrar məktublar göndərərək materialda yer alan iddiaların təkzib edilməsini və düzəlişlərin aparılmasını tələb edib.

CNN Azərbaycanın haqlı tələblərini araşdırmağa söz versə də, bu müddət ərzində heç bir əməli tədbir görməyib və irəli sürdüyü saxta iddiaları təkzib etməyib. Belə olan təqdirdə Azərbaycan CNN-ə qarşı ABŞ-ın Delaver ştatı üzrə federal məhkəməsində (media qurumunun rəsmi təsis edildiyi ştatda) iddia qaldırıb və iddia tələbi 17 avqust 2026-cı il tarixində rəsmən məhkəməyə təqdim edilib. Qeyd edək ki, CNN materialının müəlliflərindən biri olan Tim Listerin əvvəlki materiallarında da Azərbaycanla bağlı birtərəfli yanaşma müşahidə edildiyi məlumdur. O, 2020-ci il




Vətən müharibəsi və 2023-cü ildə antiterror tədbirləri zamanı da dərc etdiyi məqalələrdə Azərbaycana qarşı qərəzli iddialar yaymlayıb.

### Anti-Azərbaycan kampaniyasının tərkib hissəsi kimi...

Bəli, görtündüyü kimi Azərbaycanın qlobal təhlükəsizliyin təminində oynadığı aktiv rol bəzi mərkəzlərin planları ilə üst-üstə düşmür. İllərlə bölgə ilə bağlı fərqli planlar hazırlayan, regionda fərqli münaqişələr yaratmağa çalışan həmin mərkəzlər yeni yaranan situasiya qarşısında narahatlıq keçirirlər. Nəticə etibarı ilə isə, fərqli dezinformasiyalar, yalanlar və əsassız iddialarla bölgədə diskomfort yaratmağa çalışırlar.

Dəfələrlə bəyan edildiyi kimi, Azərbaycan ərazisinin hər hansı üçüncü dövlətə qarşı hərbi əməliyyatlar, kəşfiyyat fəaliyyəti və ya digər düşmən xarakterli məqsədlər üçün istifadə olunması barədə iddialar heç bir əsası yoxdur. Ölkəmiz bu kimi fəaliyyətlərə heç vaxt icazə verməyib və verməyəcək.

Bu fakt, həm də Azərbaycana qarşı növbəti informasiya təxribatıdır. Azərbaycan son illərdə mühüm qlobal tədbirlərə ev sahibliyi etməklə beynəlxalq aləmin diqqətini cəlb edir - rəsmi Bakı bir çox sosial, eləcə də ekoloji problemləri, qlobal şəhərsalma kimi məsələlərin həlli ilə bağlı müzakirələr təşkil edir, çıxış yollarının tapılması, bu sahələrlə bağlı beynəlxalq əməkdaşlığın gücləndirilməsi ilə bağlı addımlar atır. Nəticə etibarı ilə Bakı özünü qlobal aktor kimi təsdiqləyir. Bu isə, anti-Azərbaycan mərkəzləri narahat edir - Azərbaycanın qlobal miqyasda şöhrətinin artması, nüfuzunun, imicinin daha da möhkəmlənməsi, eləcə də regional liderliyinin qəbul olunması yeni nizamda ölkəmizin mövqelərini daha da möhkəmləndirir. Bu mənada, əl atılan təxribat ölkəmizin yeni dövrdə əldə etdiyi nailiyyətlərə qarşı qısqanclıqlardan yaranır.

Paralel olaraq bu yalanlar Yaxın Şərqdə sülh prosesinə, habelə Azərbaycanın milli maraqlarına və beynəlxalq nüfuzuna xələl gətirmək məqsədilə formalaşdırılan dezinformasiya kampaniyasının bir hissəsidir. Təsadüfi deyildi ki, adıçəkilən məqalə paylaşıldıqdan dərhal sonra “fürsətçi amplifikasiya” taktikası və prosesi nəticəsində bu anti-Azərbaycan narrativ dünya üzrə əksər nüfuzlu media orqanlarında, habelə “X”, “Threads”, “Facebook” və “Telegram” kimi sosial media platformalarında sürətlə yayılaraq kampaniya halını aldı. Məqalə müəlliflərinin sonda daim Azərbaycanın əleyhinə olan mövqeyi ilə seçilən və vaxtilə “Soros Fondu”nun maliyyələşdirdiyi media layihələrində fəaliyyət göstərən şəxsə müraciət etməsi isə məsələnin haradan qaynaqlandığını ehtimal etməyə əsas verir. Azərbaycan isə hər zaman beynəlxalq hüquqa hörmətlə yanaşıb. İnanırıq ki, məhkəmə bu məsələ ilə bağlı ədalətli mövqe tutacaq...

**P.İSMAYILOV**



# Bakıdan Rusiyaya xəbərdarlıq!

## Rusiyanın informasiya və media məkanında Azərbaycan əleyhinə təxribat, təhdid və zorakılıq ritorikasına son qoyulması məqsədilə təxirəsalınmaz və təsirli tədbirlərin görülməsi barədə gözləntimiz var

Xəbər verildiyi kimi, Baş Prokurorluqda Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorla dəyişdirilməsinə, ərazi bütövlüyünün parçalanmasına, milli nifrət və düşmənçiliyin salınmasına, habelə terrorçuluğa açıq çağırışların edilməsi faktları ilə başlanmış cinayət işi üzrə ibtidai istintaq davam etdirilir. Baş Prokurorluğun mətbuat xidmətinin məlumatına görə, istintaq zamanı müəyyən olunub ki, Rusiya vətəndaşları - "Moskva 24" telekanalının aparıcısı, jurnalist Knyazev İvan Andreyeviç, Rusiyada siyasi məsləhətçi və media eksperti kimi özünü təqdim edən Uralov Semyon Sergeyeviç və televiziya jurnalisti və müxbiri kimi fəaliyyət göstərən, Rusiyanın nəqliyyat nazirinin müşaviri Çadayev Aleksey Aleksandroviç 2026-cı il iyulun 14-də "YouTube" platformasında "Semyon Uralov" adlı kanalda yayımlanan "Çistota ponimaniya" verilişində Azərbaycana qarşı zorakı üsulların tətbiq edilməsi, ölkənin konstitusiya quruluşunun zorla dəyişdirilməsi və ərazi bütövlüyünün parçalanması, eləcə də milli nifrət və düşmənçiliyin salınmasına yönələn çağırışlarla çıxış etmələrinə əsaslı şübhələr müəyyən olunub.

Bundan başqa, həmin şəxslər 2026-cı il avqustun 13-də qeyd olunan kanalda yayımlanan verilişdə Azərbaycana qarşı zorakı üsullardan istifadə edilməsi, o cümlədən ayrı-ayrı şəxslərin birbaşa fiziki məhvetmə təhlükəsi altında saxlanılması və ünvanlı şəkildə sıradan çıxarılması barədə fikirlər səsləndirərək, terrorçuluğa açıq çağırışlar etmələrinə əsaslı şübhələr müəyyən olunub. Faktla bağlı Azərbaycanın Baş prokuroru tərəfindən Cinayət Məcəlləsinin 214-2 (terrorçuluğa açıq çağırışlar), 281.2 (dövlət əleyhinə yönələn açıq çağırışlar) və 283.2.1-ci maddələri (milli nifrət və düşmənçiliyin salınması) ilə cinayət işi başlanaraq ibtidai istintaqın aparılması Baş Prokurorluğun İstintaq İdarəsinə həvalə olunub. Toplanmış sübutlar əsasında Semyon Uralov, İvan Knyazev və Aleksey Çadayev barəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 214-2, 281.2 və 283.2.1-ci maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilmələrinə dair qərarlar qəbul edilib, həmin şəxslər Azərbaycanın hüdudlarından kənar olduqlarından axtarış elan olunaraq məhkəmənin müvafiq qərarları ilə barələrində həbs qətimkan tədbiri seçilib. Eyni zamanda, təqsirləndirilən şəxslərin tərəfdaş dövlətlərin ərazisində müəyyən edilərək tutulması və Azərbaycana təqdim olunması məqsədilə aidiyyəti dövlət qurumlarına Baş Prokurorluq tərəfindən müvafiq müraciətlər edilib, habelə onların İnterpol kanalları vasitəsilə beynəlxalq axtarışının təşkili istiqamətində zəruri tədbirlər görülüb.

Baş Prokurorluq bəyan edir ki, Azərbaycanın suverenliyinə, konstitusiya quruluşuna və ərazi bütövlüyünə qarşı yönəlmiş istənilən qanunsuz əməllərə qarşı milli qanunvericiliyin və Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq müqavilələrin tələblərinə uyğun olaraq qətiyyətli hüquqi tədbirlərin görülməsi bundan sonra da davam etdiriləcək.

### Azərbaycandan qəti etiraz - dövlətin daxili siyasi proseslərinə müdaxilə imkanlarının müzakirə edilməsi qəbuledilməzdir

Baş verənlərlə bağlı isə Rusiyanın Azərbaycandakı səfiri Mixail Yevdokimov Xarici İşlər Nazirliyinə çağırılıb. Görüş zamanı son dövrlərdə Rusiya Federasiyasının media və informasiya məkanında Azərbaycan Respublikası, Azərbaycan xalqı və ölkə rəhbərliyi əleyhinə səsləndirilən təxribat, təhqir və təhdid xarakterli açıqlamalarla bağlı Azərbaycan tərəfinin ciddi narahatlığı və qəti etirazı Rusiya tərəfinin diqqətinə çatdırılıb.

Xüsusilə, avqustun 13-də "Çistota ponimaniya" layihəsi çərçivəsində yayımlanan verilişdə ölkəmizə, xalqımıza və Azərbaycan Respublikasının rəhbərliyinə qarşı səsləndirilən ifadələrə diqqət çəkilib. Bununla yanaşı, avqustun 7-də "Sputnik" radiosunda yayımlanan proqramda Azərbaycan rəhbərliyinin "Rusiyanın terrorçu və ekstremistlər siyahısına" daxil edilməsi ilə bağlı səsləndirilən cəfəngiyyat, avqustun 9-da "YouTube" platformasında, avqustun 16-da isə "Spas" telekanalında Azərbaycanın rəhbərliyinə qarşı yenidən təhqir məzmunlu materialın yayımlanması və təxribatçı fikirlərin səsləndirilməsi xatırlanıb.

Azərbaycan dövlətinin daxili siyasi proseslərinə müdaxilə imkanlarının müzakirə edilməsinin, Azərbaycan xalqına və Azərbaycan rəhbərliyinə qarşı fiziki zorakılıq xarakterli çağırışların səsləndirilməsinin qəbuledilməz olduğu vurğulanıb.

Azərbaycan tərəfinin dəfələrlə sözügedən fəaliyyətlərin qarşısının alınmasına dair çağırışlara və məsələnin müxtəlif siyasi səviyyələrdə müzakirə edilməsinə baxmayaraq, analoji ritorikanın daha sərt formada davam etməsinin ciddi narahatlıq doğurduğu bildirilib.

Görüşdə Rusiyanın informasiya və media məkanında Azərbaycan əleyhinə təxribat, təhdid və zorakılıq ritorikasına son qoyulması məqsədilə təxirəsalınmaz və təsirli tədbirlərin görülməsi barədə gözləntimiz bir daha qarşı tərəfin diqqətinə çatdırılıb.

**Azərbaycanın suverenliyinə, konstitusiya quruluşuna və ərazi bütövlüyünə qarşı yönəlmiş istənilən qanunsuz əməllərə qarşı milli qanunvericiliyin və Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq müqavilələrin tələblərinə uyğun olaraq qətiyyətli hüquqi tədbirlərin görülməsi bundan sonra da davam etdiriləcək**

### Rusiyanın mövqeyi: Bu şəxslərin fikirlərinin Rusiyanın hökumət siyasəti ilə heç bir ortaqlığı yoxdur

Rəsmi Moskvanın məsələyə reaksiyasını isə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova səsləndirib. O bildirib ki, Azərbaycanın Baş Prokurorluğunun rusiyalı jurnalistlərin axtarışda olması ilə bağlı açıqlamaları Moskvanın Bakıya münasibətdə mövqeyini əks etdirmir. Onun sözlərinə görə, bu şəxslərin fikirlərinin Rusiyanın hökumət siyasəti ilə heç bir ortaqlığı yoxdur. "Hesab edirik ki, Rusiya-Azərbaycan münasibətləri mövcud ikitərəfli hüquqi baza, ilk növbədə 2022-ci il fevralın 22-də Moskvada ən yüksək səviyyədə imzalanmış Müttəfiqlik Əməkdaşlığı haqqında Bəyannamə əsasında inkişaf etməlidir", - nəşr M.Zaxarovanın sözlərini sitat gətirib. Yeri gəlmişkən, Rusiyanın nəqliyyat nazirinin müşaviri Aleksey Çadayev vəzifəsindən istefa verib. O, bu barədə "Telegram" kanalında yazıb.

### Mətbuat Şurası bəyanat yaydı

Məsələ ilə bağlı Azərbaycanın Mətbuat Şurası da bəyanat yayıb. Bəyanatda bildirilib ki, Rusiyanın bəzi kütləvi informasiya vasitələrində Azərbaycan dövlətinə, xalqına, ölkə rəhbərliyinə və görkəmli şəxsiyyətlərimizə qarşı nalayiq, təhdid xarakterli və təhqiramiz materiallar və fikirlər paylaşılmaqdadır.

Bəyanatda bildirilib: "Hesab edirik ki, bu, sivil jurnalistika prinsiplərinə, etik normalara və insani dəyərlərə tamamilə ziddir. Təəssüf ki, Rusiyanın informasiya məkanında belə hallar ardıcıl şəkildə müşahidə edilir. Azərbaycan Mətbuat Şurası bu kimi halları Azərbaycanla Rusiya arasındakı ikitərəfli münasibətlərin ruhuna, həmçinin media əlaqələrinə tamamilə zidd hesab edir.

Ayrıca qeyd etmək istərdik ki, Azərbaycan mediası həmişə qonşu ölkələr, o cümlədən Rusiya ilə bağlı məsələlərə həssas münasibəti ilə seçilib, peşə prinsiplərindən kənar fikir və iddialara yer verməyib.

Buna görə də Rusiyanın informasiya müstəvisində belə xoşagəlməz halların yaşanması Azərbaycan ictimaiyyətində dərin təəssüf və əsaslı narazılıq doğurmaqdadır.

Azərbaycan Mətbuat Şurası baş verən halları qətiyyətlə pisləyir. Şura, eyni zamanda, Rusiyanın media ictimaiyyətinə, bütövlükdə cəmiyyətinə müraciət edərək, Azərbaycan-Rusiya media əlaqələrini, ümumən xalqlar arasında dostluq münasibətlərini pozmağa yönəlmiş hallarla bağlı ciddi tədbir görülməsinə çağırır.

Mətbuat Şurası bir daha bəyan edir ki, Azərbaycan dövlətinə, xalqına və onun görkəmli nümayəndələrinə qarşı təhqiramiz fikirlər və təhdid xarakterli iddialar yolverilməzdir.

Rusiya informasiya məkanının sərt qanunvericilik tənzimlənməsi şəraitində belə materialların sistemli şəkildə ortaya çıxması Rusiya Federasiyasının dövlət siyasəti səviyyəsində onların təsdiqinə bərabərdir. Mətbuat Şurası belə ifadələrə yol verən şəxslərə hüquqi məsuliyyət daşıdıqlarını bir daha xatırladır".

### Kimlər diasporumuzun fəaliyyətindən narahatdır?

Maraqlıdır ki, Rusiyanın bəzi mətbuat orqanlarının mövqeyi isə Zaxarovanın fikirləri ilə ziddiyyət təşkil edir. Məsələn, Rusiyanın "Svobodnaya Pressa"(SP) nəşri Azərbaycan diasporunun Rusiyada güclənməsindən, təsir imkanlarının artmasından narahatlığını ifadə edən yazı nəşr edib. "SP" iddia edir ki, Azərbaycan diasporunun nümayəndələri siyasi və ictimai sahəyə də yayılıb. Nəşrin diqqət çəkdiyi məqamlardan biri diaspor nümayəndələrimizin Azərbaycan yazıçılarının toplantısını təşkil etməsi və Rusiya mediasında "Azərbaycan məsələsinin" işıqlandırılması ilə bağlı tənqidlər səsləndirməsidir. Məqalədə Rusiya Prezidenti yanında İnsan Hüquqları Şurasının üzvü Kirill Kabanovun fikirlərinə də yer verilir. Kabanov iddia edir ki, Azərbaycan diasporlarının rəhbərləri Rusiyanın iqtisadiyyatına təsir imkanlarını artırıb və sonradan siyasi proseslərə də müdaxilə etməyə başlayıblar. Kabanovun sözlərinə görə, Moskva üçün əsas problem iqtisadi məsələlərdən daha çox siyasi təsir cəhdləridir. O, Azərbaycanın xarici siyasətində Rusiyadan uzaqlaşaraq Türkiyə və Qərbə yaxınlaşdığını iddia edir. Politoloq Vadim Truxaçev isə daha sərt mövqe nümayiş etdirərək Rusiyada fəaliyyət göstərən azərbaycanlı diaspor strukturları ilə bağlı viza rejiminin tətbiq edilməsini təklif edir. O, Azərbaycanın xarici siyasətində əsas istiqamətlərin Türkiyə, Böyük Britaniya və müəyyən mənada ABŞ olduğunu bildirir. Məqalədə Azərbaycan diasporlarının Rusiyanın iri şəhərlərində biznes sahəsində ciddi mövqelər əldə etdiyi də iddia olunur. Nəşr bunu Rusiya hakimiyyətinin uzun müddət diqqətdən kənarda saxladığı proses kimi təqdim edir.

Məqalədən belə aydın olur ki, son baş verənlər Rusiyada Azərbaycan diaspor strukturlarına qarşı daha genişmiqyaslı hücumların yeni başlanğıcıdır. Çünki Moskva ilə Bakı arasında son dövrdə müəyyən diplomatik təmasların və münasibətlərin normallaşdırılması cəhdlərinin olmasına baxmayaraq, diaspor məsələsində Rusiyanın mövqeyində sərtləşmə müşahidə olunur...

**Ölkəmiz heç bir vaxt radikal, kəskin münasibətlərə üstünlük verməyib, tam əksinə, bizim prioritetimiz münasibətlərdə qarşılıqlı əməkdaşlıq, yaxın qonşuluq olub. Təəssüfləndirici haldır ki, zaman-zaman baş verənlər bunun tam əksini özündə əks etdirir - Simonyan, Solovyov, Zatulin və digər bu kimi ermənipərəstlərin sırasına yeni adlar əlavə olunur. Bu adıçəkilən "siyasət" və "media" adamları baş verənləri yalnız öz maraqları çərçivəsində izah etməyə çalışırlar, Azərbaycanın yürütdüyü müstəqil siyasəti həzm edə bilmirlər**

### Simonyanların, solovyovların və zatulinlərin davamçıları...

Qeyd edək ki, Azərbaycan bölgə dövlətləri ilə yaxın qonşuluq əlaqələrinin gücləndirilməsində, strateji əməkdaşlığın ən üst səviyyəyə qaldırılmasında və geniş əməkdaşlıq platformalarının qurulmasında maraqlı olduğunu hər zaman önə çəkib. Bundan başqa, Azərbaycan hər zaman münasibətlərdə ədalət və beynəlxalq hüquq müstəvisinə riayət prinsiplərinə üstünlük verir - Bakı münasibətlərin qarşılıqlı şəkildə məhz bu kontekstlər üzrə inkişafında maraqlı olduğunu ortaya qoyur. Azərbaycan Rusiya ilə münasibətləri də analoji komponentləri üzərində qurur. İki dövlət arasında geniş diapazonlu, çoxşaxəli və fərqli sahələr üzrə mühüm əlaqələr mövcuddur. Bu münasibətlər həm geosiyasi, həm də geoiqtisadi cəhətdən hər iki ölkə üçün mühüm əhəmiyyət kəsb edir.

Ölkəmiz heç vaxt radikal, kəskin münasibətlərə üstünlük verməyib, tam əksinə, bizim prioritetimiz münasibətlərdə qarşılıqlı əməkdaşlıq, yaxın qonşuluq olub. Təəssüfləndirici haldır ki, zaman-zaman baş verənlər bunun tam əksini özündə əks etdirir - Simonyan, Solovyov, Zatulin və digər bu kimi ermənipərəstlərin sırasına yeni adlar əlavə olunur. Bu adıçəkilən "siyasət" və "media" adamları baş verənləri yalnız öz maraqları çərçivəsində izah etməyə çalışırlar, Azərbaycanın yürütdüyü müstəqil siyasəti həzm edə bilmirlər. Onlar hətta bölgədə Azərbaycanın strateji planı əsasında sülh şəraitinin formalaşması, sabitliyin yaranması prosesinin mühüm bir mərhələyə qədəm qoyması ilə barışa bilmirlər. Bu isə nəticə etibarı ilə bölgədə xoşagəlməz münasibətlərin yaranmasına yol açır.

*Pərviz SADAYOĞLU*

# Paytaxtda ödənişli yollar yaradılır

## İspan şirkəti Azərbaycana layihə üzrə məsləhət verəcək

"Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi" PHŞ (AYNA) Bakıda ödənişli hərəkət zonalarının yaradılması layihəsi üzrə işlərə start verib. Agentlik müvafiq dövlət qurumları ilə birgə texniki məsələləri müzakirə edir. Ödənişli yolların tətbiqinə dair məsləhət xidmətlərini "IDOM Consulting, Engineering & Architecture S.A.A." şirkəti verəcək. İspaniya şirkəti olan "IDOM Consulting, Engineering & Architecture S.A.A." bir çox ölkələrdə ödənişli yolların icrasında əsas texniki partnyor kimi iştirak edib. 1957-ci ildə İspaniyanın Bilbao şəhərində yaradılan şirkət konsaltinq, mühəndislik və memarlıq xidmətləri ilə bərabər, şəhər nəqliyyatının idarə edilməsi sahəsində peşəkar təcrübəyə malikdir.

## "İctimai nəqliyyat" Məqsədli Büdcə Fondunun yaradılması

Ödənişli yolların yaradılmasında əsas məqsədlərdən biri nəqliyyat sektorunun inkişafına əlavə maliyyə mənbələrinin formalaşdırılmasıdır. Azərbaycanda hələlik yolların ödənişli istismarı praktikasından istifadə olunmasa da, bunun tətbiq ediləcəyi gözlənilir. Dünya praktikasından da bəlli olduğu kimi, yığılan vəsaitlər, ilk növbədə, yolların saxlanma xərclərinin qarşılanmasına yönəldilir. Azərbaycanda yolların istismarında ödənişlərin tətbiqi nəqliyyat sektorunun maliyyələşmə imkanlarının artırılması nöqteyi-nəzərindən vacibdir. Məhz bu məqsədlə Bakıda nəqliyyat vasitələrinin ödənişli hərəkət zonaları yaradılmasında məqsəd şəhər nəqliyyatının mobilliyi və infrastrukturunun modernləşməsi üçün əlavə mənbələrin formalaşdırılması nəzərdə tutulur. Belə ki, dövlət başçısının ötən ilin sentyabrında imzaladığı "Avtomobil nəqliyyatı ilə müntəzəm sərnişin daşınması sahəsinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" fərmana əsasən müəyyən edilib. Həmin sənəddə, Nazirlər Kabinetinə Bakı şəhərinin inzibati ərazisində ödənişli hərəkət zonaları və nəqliyyat vasitələrinin həmin zonalara daxil olmasına görə haqqın məbləği ilə bağlı təkliflərin hazırlanması tapşırılıb. Həmçinin nəqliyyat vasitələrinin Bakı şəhərinin inzibati ərazisində müəyyən edilmiş ödənişli hərəkət zonalarından əldə edilən vəsaitlərin idarə edilməsi üçün "İctimai nəqliyyat" Məqsədli Büdcə Fondu yaradılıb. Yeni fond ödənişli yollarda tətbiq edilən tariflərin əhəmiyyətli bir hissəsini müasir nəqliyyat vasitələrinin alınmasına və şəhər nəqliyyatının avtomobil parkının yenilənməsinə yönəldəcək.



## Bakı-Quba-Rusiya yolu ilə başlayan layihə

Qeyd edək ki, Azərbaycanda dünyada geniş yayılan ödənişli yollardan istifadə praktikası bir neçə ildir ki, tətbiq olunur. İlk belə layihə Bakı-Quba-Rusiya avtomobil yolu ilə start götürüb. H.Z.Tağıyev qəsəbəsindən başlayaraq tikilən yeni 150 kilometrlik avtomobil yolunun 129 kilometr hissəsi ödənişli yol kimi müəyyən edilib və Tarif Şurası tərəfindən, ödənişli avtomobil yolu ilə nəqliyyat vasitəsinin gedişi üçün ödənişin məbləği müəyyən olunub. Həmin məbləğ avtomobil yolunun dərəcəsi, nəqliyyat vasitəsinin qət etdiyi məsafə, çəkisi və ay ərzində gedişlərin sayı nəzərə alınmaqla təsdiq edilib. Yeni magistralda yolboyu 55 yol ötürücüsü və körpü, 44 yolaltı keçid və 509 müxtəlif diametrlərdə dairəvi və düzbucaqlı suötürücü borular inşa edilib. Yeni layihənin icrası nəticəsində müvafiq marşrut üzrə məsafə 13 km azalıb.

2026-cı ilin iyun ayından etibarən yeni tikilən 81,7 kilometrlik Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun 81,3 kilometrlik hissəsi də ödənişli yol kimi istifadədir. Bu avtomobil yolunun başlanğıc nöqtəsi Hacıqabul-Bəhramtəpə-Mincivan xəttinin 157-ci kilometri, son nöqtəsi isə Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun (Zəfər yolu) 100,5-ci kilometri müəyyən edilib. Ödənişli avtomobil yolunun 1,4-cü kilometri Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu, 27-ci kilometri - Füzuli Beynəlxalq Hava Limanının giriş yolu, 32-ci kilometri Füzuli şəhərinə giriş, 32-ci, 47-ci və 67,5-ci kilometrləri isə Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolu ilə kəsişir. Ümumilikdə, uzunluğu 81,3 kilometr olan bu yol 1-ci dərəcəli texniki dərəcəyə malikdir.

## Dünyada praktika necədir?

Hazırda dünyanın bir çox ölkələrində ödənişli yollar var. Qiymətlər ölkələr üzrə dəyişir. Məsələn, ABŞ-da olan 90 min kilometrlik federal yolların 10 min kilometri ödənişlidir. Belə yollarda gediş haqqı (50 sentdən 15 dollara qədər) adətən körpü və tunel olan ərazilər üçün alınır. Avropada da avtomobil sahibləri yolun ümumi uzunluğuna görə deyil, yalnız keçilən tunel, körpü və estakadalara görə vəsait ödəyirlər. Tariflər nəqliyyat vasitəsinin növünə və məsafəyə görə hesablanır. Məsələn, İspaniyada Madriddən Barakas aeroportuna getmək üçün cəmi 1,75 avro ödənilirsə, Madriddən Barselonaya getmək üçün (200 km) 30 avro ödəmək lazım gəlir.

Postsovet məkanında ödənişli yollardan istifadə praktikasına əl atan ilk ölkə Rusiya olub. Bu ölkədə ilk pullu yollar dövlət əsaslı vəsait qoyuluşu ilə çəkilib, 2007-ci ildən etibarən özəl bölmə təmsilçiləri də ödənişli yollar inşa etməyə başlayıblar. Hazırda qonşu ölkədə 11 federasiya subyektinin ərazisində 1100 km federal və regional əhəmiyyətli yollarda gediş-gəliş ödənişli əsaslarla mümkündür. Qardaş Türkiyədə isə Avropa istiqamətində uzanan yol ödənişlidir. Həmçinin Türkiyənin məşhur boğaz körpüsünə giriş də ödənişlədir. Burada ödəniş avtomobillərin modifikasiyasına görə dəyişir.

Xarici praktikada paytaxtın mərkəzi ərazisinə və ya şəhərdaxili zonalarda ödənişli yollar əsasən şəhərin mərkəzində sıxlığı azaltmaq və nəqliyyat axınını tənzimləmək üçün tətbiq olunur. Onların işləmə mexanizmi bir neçə modelə əsaslanır. Bura zonaya giriş haqqı əmsalı daxildir ki, həmin qaydaya əsasən, şəhərin mərkəzi hissəsinə daxil olan avtomobillər müəyyən məbləğ ödəyirlər. Ödəniş avtomobilin şəhərə giriş vaxtına görə dəyişir. Digər qayda marşrut üzrə haqq ödənişidir. Nyu-Yorkda Manhetten körpüləri və tunelləri, Sinqapurda əsas magistrallar, konkret prospekt, körpü və ya tunel istifadəsi bu qaydaya əsaslanır. Dinamik tarif sistemində isə ödəniş məbləği sıxlıq və günün vaxtına görə dəyişir. Pik saatlarda baha, boş vaxtlarda ucuz olur. Bundan başqa, abunə və güzəşt mexanizmləri mövcuddur ki, bu qaydalar üzrə şəhər sakinləri və ya həmin zonada yaşayanlar üçün güzəştlər və ya illik abunə paketləri mövcuddur. Bu mexanizmin məqsədi şəhər mərkəzində sıxlığı azaltmaq, ictimai nəqliyyata marağı artırmaq, havanın çirklənməsini minimuma endirmək və yol infrastrukturunun saxlanmasına maliyyə təmin etməkdir.

## 2027-ci ildə qaydalar hazır olacaq

Paytaxt Bakıda hələlik ödəniş mexanizmi ilə bağlı bir neçə ssenari nəzərdən keçirilir və qaydalar 2027-ci ildə məlum olacaq. Qanunvericiliyin tələblərinə əsasən, ödənişli yollarla bərabər, dövlət standartlarına cavab verən ödənişsiz alternativ yolu da geniş istifadədə qalacaq. Bu, o deməkdir ki, ödənişli yolla bərabər, paytaxtda alternativ yollar da istifadədə olacaq və seçimi sürücülər özü müəyyən edəcək.

***E.CƏFƏRLİ***

---

### Hansı ixtisaslar daha çox qazandıracaq?

# Gələcəyin peşələri dəyişir...

## Abituriyentlərin diqqət etməli olduğu məqamlar

Universitet və ixtisas seçimi abituriyentlərin qarşısında dayanan ən mühüm mərhələlərdən biridir. Artıq abituriyentlər üçün ən vacib suallardan biri "hansı ixtisası oxusam, iş tapa bilərəm?" deyil, "hansı ixtisas mənə gələcəkdə daha yüksək gəlir və karyera imkanları verə bilər?" sualıdır. Son illər əmək bazarında baş verən dəyişikliklər göstərir ki, texnologiyanın sürətli inkişafı, rəqəmsallaşma, süni intellektin iqtisadiyyata daxil olması ən gəlirli peşələrin siyahısını da əhəmiyyətli dərəcədə dəyişdirir.

Azərbaycanın əmək bazarı ilə bağlı 2025-ci il üzrə Milli Observatoriyanın apardığı təhlildə ən yüksək orta əməkhaqqının İKT, mühəndislik, memarlıq, proqramlaşdırma və layihələrin idarə edilməsi istiqamətlərində qeydə alındığı bildirilir. Bu göstərici təsadüfi deyil. Çünki müasir işəgötürən artıq yalnız diplom sahibi olan deyil, konkret problemi həll edə bilən, texnologiyadan istifadə edən, xarici dil bilən, komanda ilə işləyən və beynəlxalq standartlara uyğun nəticə ortaya qoyan mütəxəssis axtarır.

## Əmək bazarının yeni "qızıl" sahəsi

Ən gəlirli istiqamətlərdən danışarkən ilk növbədə informasiya texnologiyalarını qeyd etmək lazımdır. Proqramlaşdırma, süni intellekt, məlumat analitikası, kibertəhlükəsizlik, bulud texnologiyaları kimi istiqamətlər artıq yalnız texnologiya şirkətlərinin deyil, bankların, sığorta qurumlarının, dövlət strukturlarının, istehsal müəssisələrinin əsas ehtiyaclarından birinə çevrilib.

Burada xüsusilə diqqətçəkən məqam odur ki, İT sahəsində insanın qazancı çox vaxt diplomun adından daha çox onun real bacarıqlarından, layihələrindən, texniki biliklərindən və beynəlxalq bazara çıxış imkanlarından asılı olur. Yəni yaxşı proqramçı üçün əmək bazarının sərhədi yalnız Azərbaycanla məhdudlaşmır və xarici şirkətlər üçün məsafədən işləmək imkanları gəlir potensialını əhəmiyyətli dərəcədə yüksəldə bilir.

## Yüksək gəlirin ənənəvi ünvanı

Dövlət Statistika Komitəsinin əmək bazarı üzrə məlumatlarında mədənçıxarma sənayesinin orta əməkhaqqı baxımından ölkənin ən yüksək göstəricilərinə malik sahələrdən biri olduğu görünür. Bu da mühəndislik ixtisaslarının düzgün istiqamətdə seçildiyi və sonradan praktiki təcrübə ilə tamamlandığı halda ciddi karyera perspektivi yarada biləcəyini göstərir.

Azərbaycanda yüksək gəlirlə assosiasiya olunan sahələr sırasında neft-qaz mühəndisliyi də uzun illərdir xüsusi mövqeyini qoruyur. Xüsusilə hasilat, qazma, geologiya, avtomatika, enerji və layihələrin idarə olunması kimi istiqamətlər üzrə yüksək səviyyəli mütəxəssislər həm yerli, həm də beynəlxalq şirkətlər üçün dəyərli kadr hesab olunur.



## Rəqəmləri idarə edənlər üçün böyük imkan

Maliyyə, bank işi, maliyyə analitikası, risklərin idarə olunması, investisiya və audit kimi istiqamətlər də yüksək gəlir potensialı olan sahələr sırasında yer alır. Xüsusilə, analitik düşünmə qabiliyyəti güclü, rəqəmlərlə işləməyi sevən, iqtisadi prosesləri başa düşən və texnologiyadan istifadə edə bilən gənclər üçün bu sektor kifayət qədər geniş karyera imkanları yaradır.

Azərbaycanın əmək bazarı üzrə rəsmi məlumatlarında maliyyə və sığorta fəaliyyəti yüksək orta əməkhaqqının qeydə alındığı iqtisadi fəaliyyət sahələrindən biri kimi göstərilir. Bu tendensiya bank sektorunda rəqəmsal transformasiyanın sürətlənməsi ilə birlikdə maliyyə bilikləri ilə texnoloji bacarıqların birləşməsinin getdikcə daha qiymətli olacağını göstərir.

## Uzun təhsil yolu, amma yüksək gəlir potensialı

Tibb ixtisası digər sahələrdən fərqli olaraq daha uzun və ağır təhsil prosesi tələb etsə də, yüksək ixtisaslaşmış həkimlər, stomatoloqlar və müəyyən tibbi istiqamətlər üzrə mütəxəssislər üçün yüksək gəlir imkanları mövcuddur. Xüsusilə, özəl səhiyyə sektorunda peşəkar reputasiya, pasiyent etimadı və ixtisaslaşma gəlirə ciddi təsir göstərir.

Təhsil üzrə ekspert Elçin Əfəndi "Yeni Azərbaycan"a açıqlamasında bildirib ki, bugünkü əmək bazarına beş və ya on il sonranın prizmasından baxsaq, ən ciddi dəyişikliklərin məhz süni intellekt və məlumatların emalı sahəsində baş verəcəyini proqnozlaşdırmaq mümkündür: "Şirkətlər getdikcə daha çox qərarlarını məlumat əsasında verməyə, prosesləri avtomatlaşdırmağa və süni intellekt həllərindən istifadə etməyə başlayırlar. Xüsusilə riyaziyyat, statistika, proqramlaşdırma və analitik düşüncə ilə maraqlanan şagirdlər üçün bu sahələr olduqca perspektivli seçim hesab edilə bilər".

## Yüksək maaş verən ixtisas yox, yüksək dəyər yaradan mütəxəssis

Ekspertin fikrincə, abituriyentlərin buraxdığı böyük səhv "ən çox pul hansı ixtisasdadır?" sualına həddindən artıq bağlanmalarıdır: "Əmək bazarında eyni ixtisası bitirmiş iki insanın gəliri arasında bəzən dəfələrlə fərq ola bilər. Bunun əsas səbəbi universitet diplomundan daha çox həmin şəxsin praktiki bacarıqları, xarici dil bilikləri, təcrübəsi, sertifikatları, kommunikasiya qabiliyyəti və özünü inkişaf etdirmək istəyidir.

Əmək bazarının rəsmi təhlili də göstərir ki, işəgötürənlərin axtardığı əsas bacarıqlar arasında ünsiyyət qabiliyyəti xüsusi yer tutur. Yəni, gələcəyin yüksək maaşlı mütəxəssisi yalnız kompüter qarşısında texniki işi bacaran insan deyil, həm də fikrini düzgün ifadə edən, komanda ilə işləyən, müştəri və həmkarlarla ünsiyyət qura bilən, problemləri analiz edib həll yolları təklif edən peşəkardır".

## İxtisas seçimi zamanı edilən ən böyük səhv

E.Əfəndi qeyd edib ki, ixtisas seçərkən yalnız bugünkü maaşlara deyil, həmin sahənin gələcək potensialına, beynəlxalq əmək bazarına çıxış imkanlarına və insanın fərdi bacarıqları ilə nə dərəcədə uyğunlaşmasına baxmaq lazımdır: "Bu gün yüksək maaş verən bir peşə sabah texnologiyanın və iqtisadiyyatın dəyişməsi ilə əvvəlki üstünlüyünü itirə bilər. Amma güclü analitik düşüncə, xarici dil, rəqəmsal savadlılıq, kommunikasiya və davamlı öyrənmə bacarığına sahib olan mütəxəssis dəyişən əmək bazarına daha asan uyğunlaşa bilər.

Bu baxımdan abituriyentlər üçün İT və proqram mühəndisliyi, süni intellekt və data, neft-qaz və digər mühəndislik istiqamətləri, maliyyə-bank sahəsi və yüksək ixtisaslaşmış tibb kimi sahələr xüsusi diqqətə layiqdir. Lakin burada əsas məqsəd "ən çox qazandıran diplomu" əldə etmək yox, seçilən sahədə bazarın ehtiyac duyduğu səviyyədə peşəkar olmaqdır.

Azərbaycanın rəsmi əmək bazarı statistikasının 2026-cı ilin iyununda yenilənmiş məlumat bazası da əməkhaqqı və məşğulluq göstəricilərinin iqtisadi fəaliyyət sahələri üzrə ayrıca izlənildiyini göstərir. Buna görə də ixtisas seçimi zamanı şayiələrə və sosial şəbəkələrdə yayılan təsadüfi maaş rəqəmlərinə deyil, rəsmi statistika və real vakansiya tendensiyalarına əsaslanmaq daha sağlam yanaşmadır.

Nəticə etibarilə, gələcəyin ən çox qazanan insanları mütləq ən "prestijli" ixtisası bitirənlər deyil, seçdikləri sahədə davamlı inkişaf edən, texnologiyaya uyğunlaşan, xarici dil bilən və öz əməyini beynəlxalq səviyyədə dəyərləndirə bilən mütəxəssislər olacaq. Buna görə də abituriyentin qarşısında duran əsas sual "hansı ixtisas daha çox pul gətirir?" yox, "mən hansı sahədə yüksək səviyyəli mütəxəssisə çevrilə bilərəm və bu bacarığın bazarda dəyəri nə qədərdir?" olmalıdır".

***Yeganə BAYRAMOVA***



# Türkiyədə “TEKNOFEST Mavi Vətən” Festivalı işə başlayır

Türkiyədə keçiriləcək “TEKNOFEST-2026” Aviasiya, Kosmonavtika və Texnologiya Festivalının dəniz vasitələrinin nümayişini nəzərdə tutan “TEKNOFEST Mavi Vətən” bölməsinə avqustun 20-də start veriləcək.

AZƏRTAC xəbər verir ki, Türkiyənin dənizçilik sahəsində ilk texnologiya festivalı olan “TEKNOFEST Mavi Vətən” ölkənin Kocaeli vilayətində yerləşən Gölcük Tərsanəsində dörd gün davam edəcək.

Festivalda TCG İstanbul, TCG Burgazada, TCG Hızırreis və TCG Sakarya kimi Türkiyənin müdafiə sənayesinin artıq bilinən yerli istehsal vasitələri ilə yanaşı, müxtəlif pilotsuz dəniz və sualtı sistemlər sərgilənəcək, ölkənin sualtı hücum (SAT) və sualtı müdafiə (SAS) komandolarının xüsusi nümayişləri keçiriləcək.

Tədbirdə Türkiyənin Makina və Kimya Sənayesi, “HAVELSAN”, “ASFAT”, “ASELSAN” və “ROKETSAN” şirkətlərinin ən yeni müdafiə sistemləri təqdim ediləcək. Gənc mühəndislər isə pilotsuz sualtı sistemlər və sualtı raket yarışlarında iştirak edəcəklər.

Tədbir 23 avqustadək davam edəcək.

# ABŞ 3 dövlət arasında yeni mexanizm hazırlayır

ABŞ administrasiyası İsrail, Suriya və Türkiyə arasında münaqişələrin qarşısını almağa yönəlmiş xüsusi mexanizm yaratmaq üzərində fəal şəkildə çalışır.

Bu mexanizm əsasən üç dövlətin silahlı qüvvələri arasında anlaşılmazlıqların və ya gözlənilməz hərbi toqquşmaların qarşısını almaq üçün hazırlanmış xüsusi rabitə kanalı olacaq.



Bunu Ağ Evin Suriya və İraq üzrə xüsusi nümayəndəsi, ABŞ-ın Ankaradakı səfiri Tom Barrak “Reuters” agentliyinə bildirib.

O, İsrail, Suriya və Türkiyənin iştirak etdiyi münaqişələrin həlli üçün mexanizmə təcili ehtiyac olmasına diqqət çəkib.

“Gələcəkdə mümkün anlaşılmazlıqların qarşısını almaq üçün onun inkişafı üzərində intensiv işləyirik. Hazırda əsas vəzifə gərginliyi azaltmaq və daha balanslı yanaşma üçün ilkin şərtlər yaratmaqdır”, - diplomat qeyd edib.

Səfir vurğulayıb ki, Ankara İsrailin Türkiyə sərhədinə yaxın ərazidə yerləşən, Suriyanın Əbu Duhur hərbi bazasına hava hücumları barədə əvvəlcədən heç bir bildiriş almayıb. Onun sözlərinə görə, Ankara İsrail təyyarələrini müşahidə etmişdi və buna görə də respublikanın ehtimal olunan hərbi cavabına istinad edərək öz cavabını ağlabatan şəkildə hazırlaya bilərdi.

“Xoşbəxtlikdən, təmkin və soyuqqanlılıq vəziyyətin daha da gərginləşməsinin qarşısını almağa kömək etdi”, - T.Barrak fikirlərini yekunlaşdırıb.

# BCM-nin nüfuzuna zərbə vuran “prokuror”...

## Okamponun ifşası davam edir

BMT-nin Beynəlxalq Cinayət Məhkəməsinin (BCM) məsul əməkdaşı vəzifəsinə yüksəlmək böyük şərəf olduğu kimi, həm də böyük məsuliyyət deməkdir. Fəqət qurumun beynəlxalq hüquq üzrə ixtisaslaşan bütün əməkdaşları bu məsuliyyət yükünü daşıya bilirlərmi və yaxud daşımaq istəyirlərmi? Təəssüf ki, BCM-nin sabiq prokuroru Luis Okamponun artıq bütün dünyaya bəlli olan qərəzli fəaliyyətinə, qurumun nüfuzunu özünə qalxan edərək törətdiyi hüquqazidd əməllərinə istinad etməklə suala “yox” cavabı vermək məcburiyyətində qalırıq.

Artıq Luis Okamponun, necə deyərlər, hansı yuvanın quşu olduğu barədə beynəlxalq ictimaiyyətdə kifayət qədər əhatəli məlumat var. Sən demə, vəzifəsi cinayətləri araşdırmaq və onlara hüquqi qiymət vermək olan bu şəxs əslində BCM-nin nüfuzundan istifadə etməklə özünün müxtəlif coğrafiyaları əhatə edən cinayətkarlıq, rüşvətxorluq piramidasını qurubmuş və vəzifəsindən gedəndən sonra da okampoluğunda qalaraq bəd əməllərindən çəkinmir. Təkcə son vaxtlarda keçmiş prokurorun hüquqa tüpürməklə həyata keçirdiyi qərəzli fəaliyyətlə bağlı çoxlu yeni faktlar aşkarlanıb. Həmçinin transmilli media onun ifşasını davam etdirir. Bir qədər bundan əvvəl Luis Okampo barədə yayılan videomateriallardan, özünün etiraflarından sonra keçmiş prokurorun ikrah doğuran əməllərinə “Liberium” portalında dərc olunan məqalədə işıq salınıb.

### Okampo kimi prokurorların uğursuz fəaliyyəti və BCM-nin nüfuzunu itirməsi

Portalda dərc olunan məqalədə Okampo kimi prokurorların uğursuz fəaliyyətlərinin fonunda BCM-nin nüfuzunu itirməsinə diqqət çəkilir. Müəllifin bunu məqsədli şəkildə etdiyi ortadadır. Oxucu bir tərəfdən beynəlxalq hüququn iflasa uğradığının şahidi olur, digər tərəfdən isə mənəviyyatsız, korrupsiyaya bulaşmış Okamponu daha yaxından tanıyır. Məqalədə vurğulanır ki, BMT-nin Beynəlxalq Cinayət Məhkəməsi 24 illik tarixinin ən çətin dövrlərindən birini yaşayır. Buna səbəb Dövlət katibi Marko Rubionun iyulun 13-də məhkəməni ABŞ vətəndaşlarına qarşı hüquqi müharibə aparmaqda ittiham etməsi və Vaşinqtonun zərurət yaranacağı təqdirdə “BCM-i kərpic-kərpic sökəcəyini” bəyan etməsidir.

Bununla əlaqədar olaraq, məqalədə BCM-nin sabiq prokuroru Luis Okamponun fəaliyyətinə xüsusi diqqət yetirilir. Zamanında qərəzsiz ədalət mühakiməsini təmin etmək vədi əsasında yaradılmış bir qurum hazırda bu missiyanı yerinə yetirməkdə aciz durumda qalıb. “Bu fonda, məhkəmənin vaxtilə baş prokuroru olmuş Luis Moreno Okamponun işi indiyədək ona yetiriləndən daha çox diqqətə layiqdir. Söhbət BCM-nin tənqidindən deyil, zəifləmiş bir qurumun səlahiyyətləri şəxsi istifadə üçün əlçatan olduqda nələrin baş verdiyinə dair xəbərdarlıqdan gedir”, - deyə müəllif vurğulayıb.

Bəli, BCM-dəki bəlli şəbəkə qurumu çətin duruma salıb. Okampo kimi prokurorların korporativ maraqlara əsaslanan fəaliyyəti dünyada hansısa kiçik dövlətlə bağlı olduqda, böyük səs-küy yaratmadan vəziyyəti pərdələmək mümkün olurdu. İndi isə BCM dünyanın bir nömrəli güc mərkəzi sayılan ABŞ-la üz-üzədir. Necə deyərlər, bu dəfə daş qayaya rast gəlib. ABŞ supergüc dövlətdir. Luis Okampo kimi prokurorlar vəzifələrini tərk etsələr də, cavab vermək məsuliyyəti BCM-nin üzərindədir. Unutmaq olmaz ki, D.Tramp da məsələlərin kökünü araşdıran və radikal qərarlar verməkdən çəkinməyən liderdir.

### BCM-nin prokuroru, yoxsa beynəlxalq səviyyəli dələduz?

Okamponu necə təqdim etmək daha doğru olardı? O, rəsmən 2003-2012-ci illərdə BCM-də Prokurorluq Ofisinə rəhbərlik edib. Lakin ştatda vəzifə tutmaqla, iş fəaliyyəti, törətdiyi əməllər arasında fərq var. Prinsipcə, məmur tutduğu postun nüfuzunu qoruyub artırmalıdır. Okampo bunu edə bilməyib. Onun bu vəzifədə fəaliyyəti əsasən uğursuz işlərlə yadda qalıb, aparılan yoxlamalar isə prokuror fəaliyyətində çatışmazlıqları üzə çıxarıb.

Okampo yalnız tutduğu vəzifəyə adekvat olmayan fəaliyyəti ilə diqqət mərkəzinə gəlməyib. O həm də beynəlxalq səviyyəli dələduz, ofşorlarda hüquq müdafiəçisi adı ilə bir araya sığmayan çalışmaları ilə tanınır. İndiyədək xarici nəşrlərdə, zaman-zaman dərc olunan məqalələrdə Luis Moreno Okampo heç də yaxşı tərəfdən təqdim olunmur. Məsələn, onun səlahiyyətlərindən sui-istifadə etməklə ofşorlarda çoxsaylı şirkətlərin idarəçiliyini həyata keçirdiyi və vergi maxinasiyalarına yol verdiyi bildirilir. Panama, Beliz və Britaniyanın Virciniya adaları nahaq yerə “vergi cənnəti” adlandırılmır. Bəhs olunan yerlər işbazlar üçün gizli sövdələşmələr aparmaq, maliyyə əməliyyatlarını gizlətmək və vergilərdən yayınmaq üçün dünyanın heç bir yerində rast gəlinməyəcək məkanlardır. Okampo ailəsinin öz şirkətlərini bu yerlərdə qurması və onlara distant idarəçiliyi həyata keçirmələri də səbəbsiz deyil. Okampo özü bəhs olunan məkanların qayda-qanunlarına yaxşı bələddir. Axı o, bir vaxtlar “Transparency International” təşkilatının Latın Amerikası və Karib hövzəsi üzrə prezidenti vəzifəsində çalışıb. Təşkilat uzun müddətdir ki, vergi cənnətlərində maliyyə sirri ilə “mübarizədə” fəaldır. Məlum məkanlarla uzun illəri əhatə edən tanışlıq, burada qurulan əlaqələr Okamponu sehirli bir qüvvə kimi həmin yerlərdə şəxsi biznes qurmağa sövq edib.

Materialda həm də Okamponun vəzifədən getdikdən sonrakı maliyyə fəaliyyəti xatırladılır. Xüsusilə, “European Investigative Collaborations” və “Der Spiegel”in araşdırmasının nəticələri qeyd olunur; bu araşdırmalar müəyyən edib ki, o, baş prokuror kimi çalışdığı dövrdə və BCM-dən getdikdən sonra Panamada və Britaniyanın Vircin adalarında qeydiyyatdan keçmiş ofşor strukturları idarə edib. Bundan əlavə, vəzifədən getdikdən qısa müddət sonra İsveçrə hesabları vasitəsilə ona on minlərlə dollar köçürülüb.



Daha sonra Okampo, məhkəməsiz edamlarda ittiham olunan general Xəlifə Haftarın silahlı birləşmələrini maliyyələşdirən Liviya neft maqnatı Həsən Tatanki ilə məsləhət müqaviləsi bağlayıb, hansı ki, 3 milyon dollar və hər iş günü üçün əlavə 5 min dollar dəyərində qiymətləndirilirdi.

Məqalədə deyilir: “Bu razılaşma haqqında suallara cavab verən Okampo, Haaqadakı maaşının kifayət etmədiyini bildirmişdi”.

### Azərbaycana qarşı ardı-arası kəsilməyən sifarişli şantajlar

Məqalədə ABŞ Xarici Siyasət Şurasının nümayəndəsi İlan Bermanın “Newsweek”də dərc olunan son yazısına istinad edilir. Orada o qeyd edib ki, Okampo vəzifədə olduğu müddətdə tənqidlərə məruz qalıb və BCM-dən getdikdən sonra da mübahisələr yaratmağa davam edib. Həmçinin, nümunə kimi onun Ermənistan və Azərbaycan arasındakı münaqişəyə mübahisəli müdaxiləsi göstərilirdi.

Müəllif qeyd edib ki, Okampo məhz BCM-nin keçmiş baş prokurorunun öz peşəkar əlaqələrindən və nüfuzundan kommersiya məqsədilə istifadə etməsi ilə bağlı bu tarixçənin fonunda sonradan Qarabağ prosesinə cəlb olunub.

Materialda bildirilib ki, bu hekayə 2023-cü ilin avqustunda, Okamponun Azərbaycanın Qarabağ regionundakı erməni separatçı qüvvələrinin nümayəndələrindən və Ermənistanla əlaqəli digər şəxslərdən tapşırıq alması, daha sonra isə Azərbaycana qarşı ittihamlarla çıxış etməsi ilə başlayıb.

Luis Okamponun zamanında Ermənistan-Azərbaycan münaqişəsinin ən müxtəlif məsələlərinə qarışmaq cəhdlərinin sayı-hesabı yoxdur. O bir vaxtlar İrəvanı su yoluna döndərmişdi. Burada Serjik Sarkisyandan və digərlərindən, yəni özünün təbirincə desək, birbaşa mənbələrdən məlumatlar almaqla onları beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmağa böyük səy göstərirdi. Əlbəttə ki, o, bu kampaniyanı apararkən Azərbaycanın ədalətə və beynəlxalq hüquqa söykənən mövqeyinə məhəl qoymamaq yolu tuturdu. Məlum 23 saatlıq antiterror əməliyyatından sonra Okamponun, necə deyərlər, çılğınlığı pik həddə çatmışdı. Sanki qəzəb onun başına işləyərək hüquq müdafiəçisini tamam özündən çıxarmışdı. İndi o keçmiş separatçı rejimin saxlanılaraq Bakıya gətirilən və burada istintaq altına alınan rəhbərlərinin təəssübkeşi rolunda çıxış edirdi. Bədnam hüquq müdafiəçisi hüququ unudaraq əli çatan hər yerdə ermənilərin Qarabağdan könüllü köçünü “soyqırımı” adlandırır, separatçı rejimin saxlanılan rəhbərlərini isə “siyasi məhbus” kimi təqdim edirdi.

Okamponun özü sonradan sosial şəbəkələrdə etiraf edib ki, onun hazırladığı rəy Qarabağda hazırda ləğv edilmiş separatçı rejimin qondarma prezidenti tərəfindən sifariş edilib. Müəllif xatırladıb ki, bu qurum 1990-cı illərdə Ermənistanın dəstəyi ilə Azərbaycan ərazisində yaradılıb.

Bundan sonra Okampo Azərbaycanı regionun erməni əhalisinə qarşı ciddi pozuntular törətməkdə ittiham edib, o cümlədən yuxarıda vurğuladığımız kimi, “soyqırımı” ifadəsindən istifadə edib.

“Bu, yeganə bəyanat deyildi”, - müəllif qeyd edib.

Məqalədə göstərilib ki, sonrakı aylarda Okampo öz müsahibələrində, müəllif məqalələrində və ictimai çıxışlarında Bakının ünvanına analoji ittihamları dəfələrlə təkrarlayaraq, faktiki olaraq Azərbaycana qarşı davamlı ittiham kampaniyası aparıb.

Materialda 30 aprel 2026-cı ildə Azərbaycanın “Minval.az” portalı tərəfindən Okamponun iştirak etdiyi videogörüntülərin yayımlanmasından sonra onunla bağlı hekayənin yeni bir məcraya yönəldiyinə diqqət çəkilib. Bu videoyazılarda Okampo bildirib ki, Avropa İttifaqının (Aİ) xarici siyasət xidmətinin sabiq rəhbəri Jozep Borrelin keçmiş köməkçisi indi Avropa Parlamentində “mənim üçün işləyir”. Okamponun sözlərinə görə, bu şəxs Avropa Komissiyasının sədri Ursula Fon der Lyayenə təzyiq göstərməklə, eləcə də Aİ ilə Azərbaycan arasındakı enerji tərəfdaşlığının ləğvinə nail olmaq məqsədilə Avropa İttifaqı Məhkəməsində işin irəli sürülməsi ilə məşğuldur.

Bundan əlavə, onlarda Okamponun oğlu Tomasın bu şəbəkənin məqsədinin Ermənistanın Baş naziri Nikol Paşinyanın hakimiyyətdən kənarlaşdırılması olduğu barədə sözləri yer alır. Onun sözlərinə görə, bu, ABŞ-da Paşinyanın Azərbaycana münasibətdə sülh siyasətinə qarşı çıxan erməni lobbi təşkilatları ilə koordinasiyalı şəkildə həyata keçirilməlidir.

Bununla yanaşı, məqalədə qeyd olunub ki, məhkəmənin keçmiş əməkdaşlarının, o cümlədən Okamponun peşəkar və siyasi dəyərini məhz BCM-nin nüfuzu müəyyən edir. Müəllif hesab edir ki, bu nüfuzun zəifləməsi ondan şəxsi maraqlar naminə istifadə olunması üçün imkanlar yaradır.

Yekun hissədə müəllif BCM-ə səlahiyyət müddəti başa çatdıqdan sonra keçmiş prokuror və hakimlərin fəaliyyətini tənzimləyən əlavə qaydaları nəzərdən keçirməyi təklif edir ki, məhkəmədəki fəaliyyət nəticəsində qazanılmış nüfuzdan sonradan kommersiya və ya siyasi məqsədlər üçün istifadə oluna bilməsin.

***Mübariz FEYİZLİ***

# Avropada miqrasiya ilə bağlı yeni siyasət

## İtaliyanın sağ yönümlü lideriylə Danimarkanın sosial-demokrat baş nazirini ortaq mövqeyə gətirən nədir?

Avropada miqrasiya məsələsi uzun illər siyasi partiyaları iki tirəyə bölüb. Sağ partiyalar sərhədlərin qorunmasını, ölkəyə kimin daxil olduğuna nəzarəti, qanunsuz miqrantların geri göndərilməsini və milli maraqların müdafiəsini önə çəkiblər. Sol və mərkəz-sol partiyalar isə daha çox insan hüquqlarından, qaçqınların müdafiəsindən və miqrantların cəmiyyətə inteqrasiyasından danışıblar. Amma indi Avropada vəziyyət dəyişir. 10 avqust 2026-cı ildə İtaliyanın Baş naziri Giorgia Meloni və Danimarkanın Baş naziri Mette Frederiksen miqrasiya məsələsində daha sərt siyasətin tərəfdarı olduqlarını göstərən birgə bəyanat verdilər. Onlar nəzarətsiz miqrasiyaya qarşı çıxmaqla üçüncü ölkələrdə geri qaytarma mərkəzlərinin yaradılmasını təklif etdilər və Avropanın xristian mədəni irsinin qorunmasının vacibliyini vurğuladılar.

İlk baxışdan bu, adi siyasi bəyanat kimi görünə bilər. Amma məsələnin arxasında daha böyük dəyişiklik durur, çünki Meloni ilə Frederiksen eyni siyasi cəbhədə dayanmırlar. Meloni İtaliyanın mühafizəkar və millətçi sağ qanadını təmsil edir. Frederiksen isə sosial-demokratdır və Avropanın mərkəz-sol siyasi düşərgəsinə daxildir. Buna baxmayaraq, miqrasiya məsələsində onların mövqeləri bir-birinə yaxınlaşır. Bu, Avropa siyasətində mühüm dəyişiklikdən xəbər verir. Artıq miqrasiya məsələsini sadəcə "sağ miqrantlara qarşıdır, sol isə miqrantları müdafiə edir" formasında izah etmək mümkün deyil. Avropada yeni yanaşma yaranır: miqrasiya ola bilər, amma ona nəzarət də olmalıdır. Meloni ilə Frederiksen niyə eyni mövqeyə gəldilər? Meloninin mövqeyi müəyyən mənada gözlənilən idi, o, uzun müddətdir İtaliya sərhədlərinin daha yaxşı qorunması, qanunsuz miqrasiyanın qarşısının alınması və ölkəyə gələn şəxslərin qaydalara uyğun davranması fikrini müdafiə edir.

Frederiksenin mövqeyi isə daha maraqlıdır, çünki Danimarka Sosial Demokrat Partiyasının lideri kimi o, siyasi baxımdan sol-mərkəz düşərgəsinə aiddir. Buna baxmayaraq, Danimarka son illər miqrasiya məsələsində Avropanın ən sərt siyasət yürüdən ölkələrindən birinə çevrilib. Danimarka sığınacaq, yaşayış icazəsi, deportasiya və miqrantların cəmiyyətə uyğunlaşması məsələlərində ciddi qaydalar tətbiq edir. Burada əsas məsələ ondan ibarətdir ki, Danimarka bunu sağ partiyaların proqramı kimi yox, dövlətin normal fəaliyyət göstərməsi və cəmiyyətdə sabitliyin qorunması məsələsi kimi təqdim edir. Yəni yanaşma belədir: Ölkəyə gələn insanlara kömək etmək lazımdır, amma dövlət öz sərhədlərinə və miqrasiya sisteminə nəzarəti də itirməməlidir. Bu fikir getdikcə Avropanın başqa ölkələrində də güclənir. Miqrasiya artıq yalnız sağın məsələsi deyil.

Uzun illər Avropada miqrasiya məsələsinə belə baxılırdı: sağ partiyalar "sərhədlərimizi qoruyaq", sol partiyalar "qaçqınların hüquqlarını müdafiə edək" deyirdi. İndi fərq getdikcə azalır. Avropa hökumətlərinin qarşısında konkret problemlər var: sərhədləri necə qorumaq? Ölkədə qalmaq hüququ olmayan insanları geri necə göndərmək? Qanunsuz miqrasiya şəbəkələrinin qarşısını necə almaq? Eyni zamanda müharibədən və təqiblərdən qaçan insanları necə qorumaq? Çünki Avropanın miqrantlara ehtiyacı da var. Bir çox Avropa ölkəsində əhali yaşlanır, işçi qüvvəsinə ehtiyac artır. Müxtəlif sahələrdə xaricdən gələn insanlar işləyirlər. Deməli, söhbət miqrasiyanı tam dayandırmaqdan getmir, əsas məsələ nə qədər insanın hansı qaydalarla və hansı məqsədlə ölkəyə gəlməsidir. Bu fərq Avropa siyasətində getdikcə daha çox əhəmiyyət qazanır.

Danimarka bu dəyişiklik üçün yaxşı nümunədir. 2026-cı ilin yanvarında bu ölkənin hökuməti ağır cinayətlərə görə məhkum olunan əcnəbilərin deportasiyası qaydalarını sərtləşdirmək və ölkədə qanuni qalmaq hüququ olmayan şəxslərlə bağlı tədbirləri gücləndirmək üçün islahat elan edib. Bu isə maraqlı siyasi vəziyyət yaradır: əgər mərkəz-sol partiyalar da sərhəd nəzarətini və deportasiyanı müdafiə etməyə başlayırsa, radikal sağın "ənənəvi partiyalar miqrasiya problemini həll etmək istəmir" arqumenti əvvəlki qədər güclü görünmür. Başqa sözlə, sağ partiyalar hakimiyyətdə olmasa belə, onların miqrasiya ilə bağlı fikirləri ümumi siyasi gündəliyə təsir göstərir.

### Avropa dəyərləri nə deməkdir?

Meloni və Frederiksenin bəyanatında ən çox müzakirə doğura biləcək məsələ yalnız deportasiya deyil, onlar Avropanın dəyərlərindən və xristian mədəni irsindən də danışırlar. Bu isə başqa bir sual yaradır: Avropa dəyərləri dedikdə, nə nəzərdə tutulur? Sualın cavabını yalnız dinə bağlamaq düzgün olmaz, müasir Avropa müxtəlif dinlərin və dünyagörüşlərin yanaşı yaşadığı məkandır. Avropa ölkələrində dünyəvilik əsas prinsiplərdən biridir, bununla belə insanların dini inanc azadlığı da qorunur. Avropa kimliyini yalnız etnik mənsubiyyətlə izah etmək də mümkün deyil - "qoca qitə" əsrlər boyu müxtəlif xalqların, mədəniyyətlərin və siyasi ənənələrin qarşılıqlı təsiri nəticəsində formalaşıb. Amma Avropanın xristian tarixinin region üçün böyük rol oynadığı da danılmazdır.

Avropanın memarlığında, incəsənətində, hüquq ənənələrində, siyasi institutlarında və tarixi yaddaşında xristian sivilizasiyasının ciddi izi var. Ancaq müasir Avropanın siyasi sistemi başqa mühüm prinsiplər üzərində də qurulub: qanunun aliliyi, insan hüquqları, vicdan azadlığı, qanun qarşısında bərabərlik, demokratik idarəçilik, dövlət və din münasibətlərində dünyəvilik. Ona görə də Avropa öz tarixi-mədəni irsini qorumaqla yanaşı, başqa dinlərə və mədəniyyətlərə mənsub insanları da cəmiyyətin bir hissəsi kimi qəbul edə bilər. Burada əsas məsələ mədəni irslə ayrı-seçkiliyi bir-birindən ayırmaqdır. Qitəyə gələn insanlardan Avropa qanunlarına hörmət tələb oluna bilər, amma onların öz dinlərindən imtina etməsi tələb olunmamalıdır. İnteqrasiya tələb oluna bilər, lakin hamının eyni mədəniyyətin daşıyıcısına çevrilməsi tələb edilə bilməz. Bu fərq gələcəkdə Avropanın miqrasiya siyasətində əsas məsələlərdən biri olacaq.

### Üçüncü ölkələrdə geri qaytarma mərkəzləri

Meloni və Frederiksenin təklif etdiyi digər məsələ üçüncü ölkələrdə geri qaytarma mərkəzlərinin yaradılmasıdır. Bu ideya son illər Avropada daha çox müzakirə olunur. Məqsəd sadədir. Əgər bir şəxsin Avropada qalmaq üçün hüquqi əsası yoxdursa, onun geri qaytarılması üçün işlək mexanizm olmalıdır. Bir ölkə qanun qəbul edib "bu şəxsin burada qalmaq hüququ yoxdur" deyirsə, həmin qərarı həyata keçirə bilməlidir. Əks halda, qanunla praktika arasında böyük fərq yaranar.

Amma geri qaytarma mərkəzləri ilə bağlı çoxlu sual var. Bu mərkəzlər hansı ölkələrdə yaradılacaq? Onlara kim nəzarət edəcək? Orada saxlanan insanlar necə qorunacaq? Şəraitə kim nəzarət edəcək? Üçüncü ölkələr bu məsələni sonradan Avropa ölkələrinə siyasi təzyiq vasitəsinə çevirə bilərmi? Ən əsası isə, bütün bunlar beynəlxalq hüquqa və insan haqlarına necə uyğunlaşdırılacaq? Bu sualların cavabını tapmaq asan deyil.

İtaliyanın Albaniya ilə bağlı təcrübəsi də göstərib ki, miqrasiyanın Avropa ərazisindən kənarda idarə olunması həm siyasi, həm də hüquqi baxımdan çox mürəkkəb məsələdir. Bununla belə, Avropa hökumətləri bu ideyaya maraq göstərir. Səbəbi də aydındır. İnsanların geri qaytarılması ilə bağlı qərarlar qəbul edilir, amma həmin qərarların icrası həmişə mümkün olmur. Bu isə cəmiyyətdə belə bir sual yaradır: əgər dövlət öz qərarını həyata keçirə bilmirsə, onda həmin qərarın mənası nədir? Məhz buna görə geri qaytarma siyasəti Avropada miqrasiya müzakirələrinin ən mühüm mövzularından birinə çevrilib.



### Danimarkanın Avropaya verdiyi dərs

Danimarka nümunəsi başqa bir mühüm məsələni də göstərir: sərt miqrasiya siyasəti həmişə radikal sağın siyasəti olmur, sosial-demokrat hökumət də sərhədlərə daha ciddi nəzarət edə bilər. Bu, Avropa siyasətində mühüm dəyişiklik yaradır. Əvvəllər seçici qarşısında əsas sual belə idi: "Miqrasiyanın tərəfdarısınız, yoxsa əleyhinəsiniz?" İndi sual dəyişir: "Miqrasiyanı necə idarə etmək lazımdır?" Bu isə tamam başqa müzakirədir, çünki burada artıq əmək bazarı, mənzil problemi, məktəblər, səhiyyə, sosial təminat, cinayətkarlıq, demoqrafiya və inteqrasiya kimi məsələlər də müzakirəyə qatılır. Mərkəz-sol partiyaların təmsilçiləri üçün əsas çətinlik də buradadır: onlar bir tərəfdən humanitar prinsipləri və insan hüquqlarını qorumaq istəyirlər, digər tərəfdən isə seçicilərin sərhədlərin qorunması və dövlət nəzarəti ilə bağlı narahatlıqlarını nəzərə almalıdırlar. Frederiksenin siyasəti göstərir ki, Avropanın mərkəz-sol partiyalarının bir hissəsi ikinci istiqamətə getdikcə daha çox diqqət ayırır.

### Avropada yeni siyasi mərkəz yaranır?

Bütün bunlar Avropada yeni siyasi xəttin yaranması ehtimalını artırır. Bu xətt nə tam sağın, nə də ənənəvi solun mövqeyidir. Onun əsas qayəsi belədir: miqrasiya mümkündür, amma nəzarətsiz miqrasiya ola bilməz. Avropa iqtisadiyyatının xarici işçi qüvvəsinə ehtiyacı var, amma bu proses qanun çərçivəsində aparılmalıdır. Həqiqətən müdafiəyə ehtiyacı olan insanlara sığınacaq verilməlidir, amma ölkəyə qeyri-qanuni yolla girmək avtomatik olaraq Avropada daimi qalmaq hüququ yaratmamalıdır. Miqrantların cəmiyyətə uyğunlaşması təmin edilməli, onların dini və şəxsi həyatına hörmət olunmalıdır.

Avropanın tarixi-mədəni ənənələri qorunmalıdır, lakin bu ənənələr başqa insanları cəmiyyətdən kənarlaşdırmaq üçün istifadə edilməməlidir. Belə yanaşma həm radikal sağdan, həm də tam nəzarətsiz miqrasiya tərəfdarlarından narazı olan seçicilər üçün maraqlı görünə bilər.

Bu insanlar bir tərəfdən millətçi və kəskin ritorikanı qəbul etmirlər, digər tərəfdən isə əvvəlki miqrasiya siyasətinin problemləri həll etməkdə kifayət qədər uğurlu olmadığına inanırlar. Gələcək seçkilərdə məhz bu seçici qrupu mühüm rol oynaya bilər.

### Seuta hadisəsi nəyi göstərdi?

Meloni və Frederiksenin bəyanatının vaxtı da diqqət çəkir. Seuta ətrafında baş verən son miqrasiya böhranı Avropa sərhədlərin qorunması, məsuliyyətin bölüşdürülməsi və qanunsuz miqrasiya məsələlərini yenidən gündəmə gətirib. Belə hadisələr Avropa siyasətinə ciddi təsir göstərir, çünki insanlar sərhəd məsələsini artıq yalnız statistika kimi qəbul etmirlər. Bir anda minlərlə insan sərhədə yığılanda məsələ dövlətin öz ərazisinə nəzarət edib-etmədiyi haqda suala çevrilir. Burada əsas məsələ miqrantların sayı da deyil, dövlətin vəziyyətə nəzarət etdiyinə insanların inanıb-inanmamasıdır. Əgər cəmiyyətdə hökumətin sərhədlərə nəzarət edə bilmədiyi təsəvvürü yaranarsa, bu, hökumətə etimadı azalda bilər. Miqrasiya məsələsinin seçkilərdə böyük rol oynamasının səbəblərindən biri də budur.

### Mədəni qarşıdurma təhlükəsi

Yeni miqrasiya siyasətinin təhlükəli tərəfi də var. Əgər Avropanın mədəni irsi haqqında danışarkən məsələ həddindən artıq genişləndirilsə, bu anlayış inteqrasiya vasitəsi əvəzinə, qarşıdurma mənbəyinə çevrilə bilər. Avropa qanunlarına hörmət başqa, Avropanın bütün mədəni xüsusiyyətlərini qəbul etmək isə tamam başqa məsələdir. Avropanın özündə belə din, ailə, gender münasibətləri, dünyəvilik və ənənələr barədə fərqli fikirlər dolaşır, yəni vahid "Avropa həyat tərzi" deyə bir davranış norması yoxdur. Amma Avropanın ortaq hüquqi və konstitusion sistemi var.

Məhz bu sistem miqrantların cəmiyyətə inteqrasiyası üçün daha sağlam əsas yarada bilər: qanunlara hörmət edin, dili öyrənin, cəmiyyətə qoşulun, demokratik qaydaları və bərabər hüquqları qəbul edin. Amma bunlarla yanaşı başqa bir prinsip də qorunmalıdır: insanın dini və mədəni mənşəyi onun Avropa cəmiyyətinə uyğun olub-olmadığını avtomatik müəyyənləşdirmir. Bu balans qorunmasa, inteqrasiya siyasəti yeni qarşıdurmalara səbəb ola bilər.

### Meloni və Frederiksen əslində nə deyirlər?

Roma və Kopenhagendən gələn mesajı "Avropa sağa dönür" kimi sadə şəkildə izah etmək düzgün olmaz. Məsələ daha mürəkkəbdir. Meloni ilə Frederiksen arasında iqtisadiyyat, sosial siyasət və dövlətin rolu ilə bağlı ciddi fikir ayrılığı qalır. Onların siyasi dünyagörüşləri eyni deyil, amma miqrasiya məsələsi artıq yalnız bir siyasi düşərgənin mövzusu olmaqdan çıxır. Mərkəz-sol partiyalar sərhəd nəzarəti, deportasiya və inteqrasiya məsələlərində daha sərt mövqe tutmağa başlayır. Mərkəz-sağ və mühafizəkar partiyalar isə miqrasiyanı milli təhlükəsizlik və Avropanın gələcəyi ilə bağlı daha geniş siyasətin bir hissəsi kimi təqdim edir.

Seçicilər də hökumətləri artıq yalnız verdikləri vədlərə görə qiymətləndirmirlər. Onlar nəticəyə baxırlar: sərhədə nəzarət edə bilirsinizmi? Qanunu tətbiq edə bilirsinizmi? Ölkədə qalmaq hüququ olmayan şəxsləri geri qaytara bilirsinizmi? Həm təhlükəsizliyi, həm də insan hüquqlarını qoruya bilirsinizmi? Avropa siyasətində əsas suallar getdikcə bu ətrafda fırlanır. Artıq "İmmiqrasiyanın tərəfdarısınız, yoxsa əleyhinəsiniz?" sualı əvvəlki qədər əhəmiyyətli görünmür. Daha vacib sual budur: Avropa hansı miqrasiyanı qəbul edə bilər, bunu hansı qaydalarla idarə edə bilər və ölkəyə gələn insanlardan nə gözləyir?

### Avropanın siyasi mərkəzi dəyişir

Meloni və Frederiksenin əməkdaşlığına bu böyük dəyişiklik kontekstində baxmaq lazımdır.

Bir tərəfdə Avropanın mühafizəkar sağından gələn italyan lider, digər tərəfdə isə sosial-demokrat Danimarka hökumətinin rəhbəri var. Onlar fərqli siyasi düşərgələrə mənsubdurlar, amma miqrasiya məsələsində ortaq mövqe tapa bilirlər. Bu, Avropa siyasi sərhədlərin dəyişdiyini göstərir. Avropa hökumətləri getdikcə belə bir nəticəyə gəlir ki, işlək miqrasiya sistemi üçün bir neçə məsələ eyni vaxtda təmin edilməlidir: ehtiyac olanda insanlara yardım göstərilməlidir, həqiqi qaçqınlar müdafiə olunmalıdır, sərhədlər qorunmalıdır, qanunlar işləməlidir, miqrantların cəmiyyətə inteqrasiyası təmin edilməlidir, dövlət öz qərarlarını həyata keçirə bilməlidir. Əsas məsələ bütün bunlar arasında düzgün tarazlıq yaratmaqdır. Əgər Avropa bu tarazlığı qura bilsə, qarşıdakı illərdə yeni miqrasiya modeli ortaya çıxa bilər. Bu model nə tam açıq və nəzarətsiz miqrasiya, nə də bütün miqrantları kənarda qoyan sərt millətçiliyə əsaslanacaq; daha çox qaydaları dəqiq müəyyən edilmiş, sərhədləri qorunan, qanuni miqrasiyaya imkan verən və inteqrasiyanı tələb edən sistem formalaşa bilər.

Əgər Avropa bu məsələdə uğur qazana bilməsə, miqrasiya qitədə siyasi qarşıdurmanı daha da gücləndirə bilər. Ona görə də Meloni və Frederiksenin yaxınlaşmasının əsas əhəmiyyəti iki fərqli siyasi düşərgədən olan siyasətçinin bir məsələdə razılaşmasından ibarət deyil. Əsas məsələ daha böyükdür. Avropada sol və sağ arasında miqrasiya məsələsində əvvəlki sərhədlər artıq aydın görünmür. Avropanın siyasi mərkəzi dəyişir.

Miqrasiya məsələsində yeni bir orta yol formalaşır. Bu yolun əsas sözü isə nəzarətdir. Avropa bundan sonra miqrasiyaya yalnız "qəbul etmək və ya etməmək" prizmasından baxmayacaq. Əsas müzakirə belə olacaq: kim gəlir? Niyə gəlir? Hansı qaydalarla gəlir? Cəmiyyətə necə uyğunlaşır? Ölkədə qalmaq hüququ yoxdursa, necə geri qaytarılır? Bu suallara veriləcək cavablar Avropa siyasətinin növbəti mərhələsini müəyyənləşdirə bilər. Avropada miqrasiya məsələsi artıq sadəcə sağa doğru yox, yeni siyasi mərkəzə doğru hərəkət edir. Və həmin yeni mərkəzin əsas şərti nəzarətdir.



*Kəramət Qənbərov,*
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dövlət qulluğu və kadr siyasəti" kafedrasının müəllimi, beynəlxalq hüquq üzrə ekspert və beynəlxalq münasibətlər üzrə tədqiqatçı*

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"PressInform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**





# Azərbaycan muğamının əbədi Xanı!

## Onun səsində Şuşanın dağları, Qarabağın nəfəsi vardı...

Musiqi tariximizdə elə sənətkarlar var ki, onların adı uzun illər keçsə də, xalqın mənəvi yaddaşının ayrılmaz hissəsinə çevrilir. Belə sənətkarlardan biri olan İsfəndiyar Cavanşirov Azərbaycan muğamının, xanəndəlik məktəbinin və musiqi mədəniyyətimizin tarixində özünəməxsus, silinməz iz qoyub. Geniş səs diapazonu ona istər bəmdə, istərsə də zildə oxumaq imkanları verirdi.

Bu gün görkəmli xanəndənin anadan olmasından 125 il ötür. Azərbaycan tamaşaçısı onu Xan Şuşinski adı ilə tanıdı və sevdi.

### Nə üçün Xan?

İsfəndiyar Cavanşirovun Xan adlandırılmasının maraqlı tarixi var. Belə ki, hələ kiçik yaşında olarkən ustadı İslam Abdullayevlə birgə Ağdamın Novruzlu kəndində bir məclisdə iştirak edirmişlər. İslam Abdullayevin xahişi ilə ev yiyəsi qrammofonu qurur və Təbrizli Əbülhəsən xanın ifasında "Kürd Şahnazı" muğamını dinləyirlər. Məclisdə olanların heyranlıqla qulaq asdığını görən İslam Abdullayev üzünü yenіyetmə İsfəndiyara tutaraq, bəlkə sən də "Kürd Şahnazı" oxuyasan deyir. Ustadının sözünü yerə salmayan İsfəndiyar muğamı elə bir şövqlə, daha zildən ifa edir. Onun bu ifasına heyran qalan bütün məclis əhli alqışlarla qışqırır: "Əsl xan elə bu imiş ki...". İslam Abdullayev şagirdinə xeyir-dua verərək: "Bu gündən sən oldun Xan", - deyir.

Beləliklə, Azərbaycan muğam sənətinin Xanı-Xan Şuşinski yaradıcılığının uğurlu, şöhrətli dövrü başlayır. Onun bir xanəndə kimi yetişməsində Cabbar Qaryağdıoğlunun və Seyid Şuşinskinin də böyük təsiri olmuşdu. O, öz müəllimlərindən "Mirzə Hüseyn segahı", "Rast", "Şüştər", "Şur" kimi bir çox muğam və xalq mahnılarını öyrənib.

Xan Şuşinski Üzeyir Hacıbəylidən başqa heç bir bəstəkarın yaradıcılığına müraciət etməyib. Deyilənə görə, Üzeyir Hacıbəyli də mahnılarını Xan Şuşinskinin ifasında dinləməkdən xüsusi zövq alırmış, xüsusən də "Qaragöz" mahnısını...

### Məclislərdə bədahətən yaranan əsərlər...

1920-ci illərdən sonra Xan Şuşinski vaxtaşırı Bakıya gələrək öz ifaçılıq fəaliyyətini genişləndirir. Bakıya gəldiyi zaman verdiyi konsertlərdə izdiham yaşanır, insanlar onun ifasını canlı dinləmək üçün sel kimi axışır. Xan əminin Bakıya köçməsini o dönəmdə Azərbaycanın kommunist rəhbəri olan Mircəfər Bağırovla bağlayırlar. Belə ki, 1938-ci ildə Moskva dekadasına getməyən Xan Şuşinski barədə söz-söhbət gəzirmiş ki, Şuşada toyları qoyub Moskvaya vacib dövlət tədbirinə getmək istəməyib. Bundan hiddətlənən Mircəfər Bağırov Xan Şuşinskinin Bakıya köçürülməsini əmr edir və 1939-cu ildə - 38 yaşında Xan Şuşinski Bakıya köçür...

Xanəndənin repertuarında "Mahur-Hindi", "Bayatı-Qacar", "Qatar" muğamları, "Qarabağ şikəstəsi", "Arazbarı", "Heyratı" zərb muğamları ilə yanaşı, xalq mahnıları və təsniflər də yer alır, ifasında daha fərqli, yeni çalarlarda səslənirdi. Xan Şuşinski 1923-cü ildə Azərbaycan Dövlət Filarmoniyasında ilk rəsmi çıxışını edib.

Çox zaman xalq mahnıları kimi təqdim olunan "Qəmərim", "Şuşanın dağları", "Ay gözəl", "Məndən gen gəzmə", "Al yanağında", "Dağlarda çiçək", "Gözəl yarım", "Ölürəm, a Ceyran bala" mahnılarının müəllifi Xan Şuşinskidir. "Şuşanın dağları" mahnısının musiqisi ilə yanaşı, sözləri də Xana məxsusdur. Onun mahnılarının demək olar, hamısı məclislərdə bədahətən yaranıb. Xan Şuşinski məşhurluğun, şöhrətin bütün məqamlarına yüksəlmişdi. Onun ifasını təkcə Azərbaycanda deyil, bir çox ölkələrdə, qastrol səfərində olduğu dövlətlərdə də sevib, alqışlarla qarşılayıblar.

Xanəndənin eyni zamanda, simfonik orkestrlə də ifaları var. Simfonik orkestrin müşayiəti ilə ilk dəfə simfonik muğamlarda solo hissəni Xan oxuyub. Ümumiyyətlə, musiqi tariximizdə bir çox ilklər onun adı ilə bağlıdır. İlk dəfə duet janrında da Xan Şuşinski Şövkət Ələkbərova ilə "Yaylıq" adlı mahnı ifa edib.

1934-cü ildə Xan Şuşinski Tiflis şəhərində keçirilən Zaqafqaziya xalqlarının birinci incəsənət olimpiadasında böyük müvəffəqiyyət qazanaraq birinci mükafata layiq görülür. O, səfər etdiyi bütün ölkələrdə Azərbaycan musiqi mədəniyyətini yüksək səviyyədə və layiqincə təmsil etmişdi...

Azərbaycan musiqi sənətində göstərdiyi yüksək xidmətə və muğamlarımızı dünyada layiqli təbliğ etdiyinə görə, 1943-cü ildə birbaşa Azərbaycan Xalq artisti adına layiq görüldü. Bu fəxri ada layiq görülməsindən bir il sonra, yəni 1944-cü ildə Məhəmməd Rza Şah Pəhləvinin dəvəti ilə İrana qastrol səfərinə yollanan Xan əmi səfər zamanı Tehran da daxil olmaqla, İranın 4 şəhərində böyük konsert proqramı ilə çıxış edib. Elə həmin ilin dekabr ayında Tiflisdə keçirilən Zaqafqaziya respublikalarının musiqi dekadasında iştirak edir. Z.Paliaşvili adına Tbilisi Dövlət Opera və Balet Teatrında keçirilən konsertdə Xan Şuşinski "Qatar", "Səmavi-şəms" muğamını oxuyaraq böyük müvəffəqiyyət qazanır...

Görkəmli xanəndə 1960-cı ildə Azərbaycan Dövlət Filarmoniyasının nəzdində "Muğam studiyası" yaradaraq gənc xanəndələrə muğamın sirlərini öyrədib. 40 ildən çox Azərbaycan Dövlət Filarmoniyasında solist olan Xan Şuşinski ömrünün son illərində Asəf Zeynallı adına Bakı Musiqi Kollecində xanəndəlik sinfində dərs deyərək muğam ifaçılarının yeni nəslinin yetişməsində əvəzsiz xidmətlər göstərib. Dahi sənətkar gənclikdə ona verilən "Xan" adının məsuliyyətini ömrünün sonunadək şərəflə daşıyaraq Azərbaycan musiqisinin həqiqi Xanı olub.

### Səhnədən də Xan kimi getdi!

Xan Şuşinski ölümünə 10 il qalmış heç vaxt əlinə qaval alıb bircə ağız belə oxumur və təbii ki, səhnəyə çıxmır. Bu, Azərbaycanın mədəniyyət tarixində vaxtında səhnədən getməyin ən ağayana nümunəsi hesab olunur. Dahi sənətkarın səsinin yadigarı kimi günümüzə cəmi 240 dəqiqəlik lent yazısı gəlib çatıb. Muğam sənətimizin korifeyi 1979-cu ildə vəfat edib və Bakı şəhərindəki II Fəxri Xiyabanda dəfn edilib. Dünyaya çox xanlar gəldi-getdi. Lakin bircə Xan qaldı! O da muğam sənətimizin xanıdır...

*Yeganə BAYRAMOVA*



# Əfsanəvi maestro

## Niyazinin anadan olmasından 114 il ötür...

Onun adı çəkiləndə ilk növbədə göz önünə orkestr qarşısında dayanan, hər bir hərəkəti ilə musiqinin ritmini, nəfəsini və emosional yükünü idarə edən maestro obrazı gəlir. Dirijorluğunu yalnız orkestri idarə etmək bacarığı ilə məhdudlaşdırmaq mümkün deyil. Çünki Niyazi musiqi əsərinin daxili ruhunu açmağa, bəstəkarın düşüncəsini dinləyiciyə çatdırmağa və musiqi parçasında bütöv bir həyat hekayəsi yaratmağa qadir sənətkar idi.

Bu gün Maestro Niyazinin doğum günüdür. Azərbaycanın Xalq artisti Niyazi Zülfüqar oğlu Tağızadə - Hacıbəyov 1912-ci il avqustun 20-də Tiflis şəhərində dövrünün tanınmış bəstəkarı Zülfüqar Hacıbəyovun ailəsində anadan olub. Atası Zülfüqar Hacıbəyov Azərbaycanda musiqili teatrın banilərindən, əmisi Üzeyir Hacıbəyov isə dahi bəstəkar idi. Çox kiçik yaşlarından ətrafında məşhur xanəndələr görən Niyazidə də musiqiyə böyük maraq oyanır. O, ilk təhsilini Bakı Musiqi Texnikumunda alır, lakin sonra təhsilini davam etdirmək üçün Moskva və Leninqrad şəhərinə gedir.

Maestro Niyazi bəstəkar kimi də uğur qazanıb. Təsadüfi deyil ki, o, "Çitra" baletinə görə Hindistanda beynəlxalq Nehru mükafatına layiq görülüb. Onun sevgi dolu bəstələri bu gün də dünyanı dolaşmaqdadır. Niyazinin ilk böyük müvəffəqiyyəti isə 1938-ci ildə Moskvada keçirilmiş "Azərbaycan incəsənəti günləri"ndəki çıxışı ilə bağlıdır. O, Moskvada Üzeyir Hacıbəyovun "Koroğlu" və Müslüm Maqomayevin "Nərgiz" operalarına dirijorluq edib. Maestronun ömrünün sonunadək davam edən belə uğurlu çıxışları mədəniyyət tariximizə qiymətli səhifələr yazıb. Maestro Azərbaycan bəstəkarlarının əsərlərinin dünyada təbliği ilə yanaşı, Qərb və rus bəstəkarlarının əsərlərinə də eyni dərəcədə peşəkarlıqla dirijorluq edib. Dünyanın ən məşhur salonlarında çoxsaylı tamaşaçılar uzun müddət onun sənətinin sehrindən ayrıla bilməyiblər.

Təbii ki, Niyazinin yaradıcılığında ona dünya şöhrəti gətirən dirijorluq sənəti olub. Lakin o, bəstəkar kimi bir sıra simfonik əsərlər, kinofilmlərə, dram tamaşalarına musiqilər, romanslar yazıb, Z.Hacıbəyovun "Aşıq Qərib", Ü.Hacıbəyovun "Arşın mal alan" və s. əsərlərinin yeni redaksiyalarını hazırlayıb, bir çox Azərbaycan xalq mahnılarını simfonik orkestr üçün işləyib, "Rast" və "Şur" muğamlarını nota salıb. Niyazinin üç əsəri - "Rast" simfonik muğamı, "Xosrov və Şirin" operası və "Çitra" baleti onun bəstəkarlıq fəaliyyətində xüsusi önəm daşıyır. Güclü emosional təsiri, zəngin melodiyası, harmonik dilinin əlvanlığı və ifadəliliyi ilə fərqlənən "Rast" simfonik muğamı müəllifin dirijorluğu altında bir çox xarici ölkələrdə səslənib, Çexiyada "Suprafon", ABŞ-da "Rikordi" musiqi şirkətləri tərəfindən qrammofon valına yazılıb. "Xosrov və Şirin" operası musiqi dramaturgiyasının çoxplanlı olması, psixoloji gərginliyi, xor səhnələri və opera epizodlarının ifadəliliyi ilə fərqlənir. Məşhur hind yazıçısı Rabindranat Taqorun "Çitranqoda" fəlsəfi dramı əsasında yazılmış "Çitra" baletində isə hind xalq musiqisi ritmlərindən, hind musiqi alətlərinin səslərini xatırladan tembrlərdən istifadə edilib.

Niyazi sənəti Dmitri Şostakoviç, Bülent Tarcan, Vatslav Dobiaş və digər sənətkarlar tərəfindən yüksək qiymətləndirilib. Onunla sıx yaradıcılıq münasibətlərində olan böyük rus bəstəkarı Dmitri Şostakoviç demişdi: "Cəsarətlə təsdiqləyə bilərik ki, Azərbaycan musiqisinin bütün dünyada tanıdılması üçün borclu olduğu musiqiçilərdən biri Niyazidir. Azərbaycan fəxr edə bilər ki, belə bir dirijoru var".

Niyazi həssas, ömrü boyu sevməyi bacaran bir qəlbə malik insan idi. O, həyat yoldaşı Həcər xanımla 51 il birgə ömür sürüb, onların ailə həyatı bir sevgi dastanına çevrilib. Onun əbədiyaşar sənət naminə çəkdiyi zəhmətlər layiqincə qiymətləndirilib. Maestro ən yüksək mükafatlara layiq görülüb. O, müxtəlif vaxtlarda Dövlət mükafatlarına, SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı adlarına layiq görülmüş, bir çox orden və medallarla təltif olunub, Tbilisinin fəxri vətəndaşı seçilib.

Niyazi 1984-cü ildə dünyasını dəyişsə də, onun sənət yolu bununla başa çatmadı. Əksinə, yaratdığı musiqi nümunələri, yetişdirdiyi sənət mühiti və Azərbaycan dirijorluq məktəbinin inkişafına verdiyi töhfələr sayəsində maestro adı bu gün də musiqisevərlərin yaddaşında yaşayır. Onun dirijor çubuğunun orkestr qarşısında yaratdığı ahəng, bəstəkar kimi yazdığı əsərlər və Azərbaycan musiqisinə gətirdiyi sənət nəfəsi zamanın sərhədlərini aşaraq bu günə qədər gəlib çatıb.

*Yeganə BAYRAMOVA*

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4487
Sifariş: 1077
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova